**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**NATAVAN MİKAYIL qızı HƏSƏNOVA**

# QANUN ALƏTİNDƏ AZƏRBAYCAN XALQ MUSİQİSİNİN İFA XÜSUSİYYƏTLƏRİ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

*Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Səadət Abutalıb qızı Abdullayeva**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Aytac Elxan qızı Rəhimova**
sənətşünaslıq üzrə elmlər doktoru, dosent

**Leyla Ramiz qızı Zöhrabova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin «Musiqi tarixi və nəzəriyyəsi» kafedrası**

Müdafiə _____ yanvar 2018-ci ildə saat 14:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat _____dekabr 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru
dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycanın müasir dünya mədəniyyətində fəal iştirak etməsi nəticəsində ölkəmizin tarixinə, maddi və mənəvi mədəniyyətinə, musiqisinə və ifaçılıq sənətinə olan elmi maraqlar durmadan artmaqdadır. Çoxəsrli musiqi incəsənətimizə elmi maraqların artması isə öz növbəsində, xalqımızın qədim və zəngin çalğı alətlərinin və ifaçılıq sənətinin elmi araşdırılmasını aktuallaşdırmışdır. Digər tərəfdən, xalq çalğı alətləri və ifaçılıq sənəti xalqın tarixi, mənəviyyatı, dili, dünyagörüşü, adət-ənənələri, məişəti və mərasimləri ilə sıx bağlı olduğu üçün onların kompleks və sistemli şəkildə tədqiq edilməsi musiqişünaslıq elminin mühüm nəzəri-praktik və metodoloji vəzifəsinə çevrilmişdir.

Xalq çalğı alətləri musiqi tariximizin, xalq musiqi yaradıcılığının ayrılmaz tərkib hissəsidir. İkincisi, xalq çalğı alətləri ifaçılıq sənəti ilə sıx vəhdət təşkil edirlər. Bütün bu arqumentlər xalq çalğı alətlərinə kompleks və sistemli yanaşılmasını musiqişünaslığın qarşısında aktual vəzifə kimi qoyur.

Azərbaycan musiqi incəsənətinin uğurlu təbliği ənənəvi musiqi irsimizə və milli musiqi alətlərimizə beynəlxalq aləmdə olan professional maraqları daha da artrmışdır. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun Sülhməramlı Səfiri, Vitse Prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən beynəlxalq muğam layihələri peşəkar mütəxəssislər və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. “Muğam aləmi” Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən beynəlxaq festivallar, beynəlxalq müsabiqələr və elmi simpoziumlar (2009, 2011, 2013, 2015), respublika və beynəlxalq səviyyədə keçirilən elmi tədbirlər, “Türk xalqlarının musiqi alətləri” beynəlxalq simpoziumu (Bakı, 2012, dekabr), Azərbaycan Milli Konservatoriyasının və ADMİU-nun birgə təşkilatçılığı ilə keçirilən milli musiqi alətlərinin elmi bərpası problemlərinə dair respublika elmi-praktik seminarı (2016, may) və digər bu kimi tədbirlər xalq çalğı alətlərinin və ifaçılıq sənətinin tədqiqi istiqamətində yeni elmi nailiyyətlərə və nəticələrə səbəb olmuşdur. Lakin bütün bunlara baxmayaraq, qədim çalğı alətlərimizin həllini gözləyən problemləri mövcuddur. Bu problemlər Azərbaycanın qədim xalq çalğı alətlərindən olan və ifaçılıq sənətində geniş tətbiq edilən qanun alətinə də aiddir. Qanun alətinin tarixi və ifaçılıq aspektlərinin kompleks və sistemli tədqiqi, bu problemin yeni metodoloji yanaşma ilə həlli elmi-aktual məsələ kimi musiqişünaslığın gündəmindədir.

Azərbaycan musiqişünaslığının nəticələrinə görə, ayrılıqda götürülmüş alətlər qrupunun (simlilərin, zərblilərin, nəfəs alətlərinin, idiofonlu-

ların), eləcə də bu qruplara aid olan hər bir alətin ayrıca tədqiq olunması etnoorqanologiya elminin vacib məsələlərindən biridir.[1]. Görkəmli rus etnomusiqişünas-alimi İqor Masiyevski isə alətlərin öyrənilməsi metoduna həsr etdiyi məqalələrin birində "milli alət" problemini qaldırır və qeyd edir ki, milli alətlərin tədqiqi dünya musiqi tarixinin, ifaçılıq sənətinin, xalqlar arasında musiqi əlaqələrinin, alətlərin arealının öyrənilməsi yolunda vacib addımlardan biridir.[2]. Eləcə də V.Belyayev, R.Qruber, Q.Qasımov, M.Kərim, S.Ağayeva, M.Qafarova, A.Nəcəfzadə, K.Vertkov, İ.Masiyevski, F.Karomatov, T.Vızqo, S. Ayhan, S.Uteqaliyeva və b. görkəmli mütəxəssislər tərəfindən qaldırılan bu kimi obyektiv və vacib elmi-metodoloji məsələlər Azərbaycan qanununun tədqiqini daha da aktuallaşdırır.

Xalq çalğı alətləri sisteminə daxil olan hər bir alətlər qrupunun və yaxud ayrıca götürülmüş bir alətin tədqiq olunması istiqamətində respublikamızda aparılan araşdırmalar musiqişünaslığın aparıcı sahələrindən biri kimi etnoorqanologiyanın inkişafına, yeni elmi-praktik nəticələrin əldə olunmasına müsbət təsir göstərmişdir. Bu sahədə Azərbaycan mütəxəssislərinin əldə etdikləri elmi nailiyyətlər və maraqlı nəticələr bir daha belə deməyə əsas verir ki, qədim çalğı alətlərinin, o cümlədən, qanun alətinin tarixi və ifaçılıq aspektlərinin öyrənilməsi aktual əhəmiyyət kəsb edən məsələdir. Belə ki, qanun aləti hələ erkən orta əsrlərdən başlayaraq, Azərbaycan peşəkar ifaçılıq sənətində geniş yer tutmuşdur. Ötən əsrin ikinci yarısından etibarən, milli ifaçılıq sənətində, solo, orkestr və ansambl ifaçılığında bərpa olunan qanun alətində peşəkar ifaçıların sayı getdikcə artmış, alətin repertuarı, dinləyici auditoriyası genişlənmişdir.

XX əsrin sonlarında Ü,Hacıbəyli adına Bakı Musiqi Akademiyasında və XXI əsrdə Azərbaycan Milli Konservatoriyasında qanun musiqi aləti üzrə peşəkar ifaçı və müəllim kadrlarının hazırlanması milli musiqi təhslinin nailiyyətlərindən biridir. "Xalq çalğı alətləri" və "İnstrumental muğam" kafedralarında qanun-not, qanun-muğam ixtisaslarının tədrisi məhz müasir

---

[1] Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). - B.: Adiloğlu, 2002.; Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətlərinin öyrənilməsinin əsas istiqamətləri.//Azərbaycan milli musiqisinin tədqiqi istiqamətləri: I respublika elmi konfransının materialları (Bakı Musiqi Akademiyası, 17-19 dekabr, 1991-ci il). – B., 1992, s. 94-96; Абдуллаева С.А. Историография Азербайджанских народных музыкальных инструментов. Учебное пособие.- Б., Изд.АПУ,1991.

[2] Мациевский И.В. О взаимосвязи инструмента и инструментальной музыки в процессе исторического развития культуры //Вопросы инструментоведения. Вып.2. – СПб, 1995, с.60-66.; İmrani R.H. Muğam tarixi. – B., Adiloğlu, 1998.

tələblər səviyyəsində, yeni proqramlar, metodik və dərs vəsaitləri əsasında həyata keçirilir. Bundan başqa, Bakı Musiqi Akademiysının və Azərbaycan Milli Konservatoriyanın musiqi alətləri üzrə elmi-praktik bərpa və təkmilləşdirmə laboratoriyası xalq çalğı alətlərinin tədqiqi və tədrisi yolunda mühüm addımlar atmışdır.

Beləliklə, dissertasiya mövzusunun elmi-praktik **aktuallığı** musiqişünaslıqda öz obyektiv təsdiqini tapır.

**Mövzunun işlənmə dərəcəsi.**Azərbaycan xalq çalğı alətlərinin bəzi tarixi, nəzəri, ifaçılıq və təkmilləşmə məsələləri orta əsrlərdə yaşayıb-yaratmış musiqişünas-alimlərin risalələrində öz əksini tapmışdır. Orta əsrlərin musiqişünas-alimləri həm də öz dövrünün kamil sənətkarları və ustad ifaçıları olmuşlar. Əl-Kindi, Əl-Fərabi, Səfiəddin Ürməvi, Əbdülqadir Marağalı, Əbdürrəhman Cami, Mirzə bəy, Dərviş Əli, Mir Möhsün Nəvvab və b. musiqi praktikasına, ifaçılıq məsələrinə mühüm diqqət vermiş, alətlər və ifaçılıq qaydaları barədə maraqlı mülahizələr irəli sürmüş, hətta dövrün musiqi alətlərinin təsnifatını aparmış, onların materialı, quruluşu, etimologiyası, ifası haqqında məlumatlar vermişlər. Lakin onların elmi irsində qanun alətinə dair məlumatlar çox azdır, qanun bəzən yalnız təsnifata daxil edilmiş, bəzən də növü, forması, materialı və çalğı üsulu barədə məhdud məlumat verilmişdir.

XX əsrdə Azərbaycanxalq çalğı alətləri sırasında qanun aləti digər alətlər ilə müqayisədə nisbətən çox az tədqiq olunmuşdur. Bəzi məqalə, lüğət və kitablarda alətin xüsusiyyətləti, tarixi və quruluşu haqqında ümumi xarakterli məlumatlar verilmiş və həmin məlumatlar isə daha çox bir-birinin təkrarı olaraq yazılmışdır. İlk elmi yanaşma dahi bəstəkar və musiqişünas-alim, Azərbaycan klassik professional musiqisinin və milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəyliyə məxsusdur.[3].Dahi sənətkardan sonra qanun haqqında məlumat görkəmli bəstəkar, dirijor və musiqişünas Əfrasiyab Bədəlbəyli tərəfindən verilmişdir.[4]Onun alətin quruluşu, təbii materialı, simləri, diapazonu haqqında ilk lüğət məlumatları musiqişünaslar tərəfindən istifadə olunmuşdur. Ağalar Əliverdibəyovun "Rəsmli musiqi tarixi" kitabında qanun alətinin azərbaycanlılarda, ərəblərdə, türklərdə, qanun növlü alətlərin çinlilərdə, yaponlarda, misirlilərdə, assurlarda, yunanlarda,

---

[3]Hacıbəyov Ü.H. Azərbaycan musiqi həyatına bir nəzər. // Seçilmiş əsərləri. II c. - B., Azərb.SSR EA nəşriyyatı, 1965, s. 215-225.; Hacıbəyov Ü.H. Şərq musiqisi haqqında Qərb alimlərinin təfsiri. //Seçilmiş əsərləri. II c. - B., Azərb.SSR EA nəşriyyatı, 1965, s. 233-238.

[4] Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti - B.: Elm, 1969, 248 s. s.32-33

yəhudilərdə çalınmasl barədə qısa şərhlər, illüstrasiyalar yer almışdır.[5] Lakin qanuna aid olan bu maraqlı məlumatlar elmi məqsəd və tədqiqatdan çox kütləvi-publusist üslub daşısa da, müəllifin alət haqqında informasiyası kimi qeyd olunmasını məqsədəuyğun hesab edirik. Musiqi tarixçisi Qubad Qasımov isə N.Gəncəvi və M.Füzuli dövrünün musiqi sənətinə dair bir neçə tədqiqat məqalələrində ifaçılıq sənəti və musiqi alətləri haqqında mənbələr araşdırmış, bu mənbələr üzrə dövrün alətləri sırasında qanun alətinin də adını göstərmişdur.[6]

Mövzunun nisbətən çox işlənilməsinə sənətşünaslıq üzrə elmlər doktoru, professor Səadət Abdullayevanın monoqrafiyalarında rast gəlirik. Görkəmli etnoorqanoloq-alim qanun alətinin poetik, elmi, rəngkarlıq və səyyah mənbələri, təbii materialı, quruluşu, hissələri, kökü, diapazonu, simləri, registrləri haqqında maraqlı faktoloji məlumatlar vermişdir.[7] Xalq artisti, sənətşünaslıq üzrə elmlər doktoru, professor Məcnun Kərimdə “Azərbaycan musiqi alətləri” dərs vəsaitində qanun barədə lüğəti izahlar vermiş, bəzi türkdilli mənbələrə əsasən alətin adına və tarixinə dair qısa

[5] Əliverdibəyov A.Ə. Rəsmli musiqi tarixi. /Transliterasiyası, tədqiqi və lüğətin tərtibçisi A.Xəlilova. – B.: Şuşa, 2001.; İmrani R.H. Azərbaycan muğam sənətinin tarixi və elmi-nəzəri əsasları: Sənətş. doktoru a.d....dissretasiyanın avtoreferat. – Bakı, 1998; İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. – B.: İşıq, 1984.; Kərimov M.T. Azərbycan musiqi alətləri. – B., Yeni nəsil, 2002.; Qasımov Q. Orta əsr musiqi-estetik baxışlarınını bəzi məsələlərinə dair. - “Elm və həyat”, 1974, N 11, s.26-37.; Mazel L.A. Musiqi əsərlərinin quruluşu. Dərs vəsaiti. Tərcümə edəni G. Hüseynova. - B.: Maarif, 1988.; Nəcəfzadə A.İ. Ərğənun – telli, mizrabla çalınan qədim musiqi aləti. - “Konservatoriya”, 2013, N 3 (21), s.95-113; Rəhmətov Ə.M. Qədim musiqi alətlərindən istifadə. – “Elm və həyat”, 1974, N 1, s. 28

[6] Qasımov Q. Nizami dövründə musiqi alətləri.- “Ədəbiyyat”, 1947, 27 sentyabr.; Qasımov Q. Nizami və Azərbaycan musiqisi. – “Elm və həyat”, 1979, N 11, s.29-30.; Касимов К. Музыкальная культура Азербайджана XVI-XVII вв. //Искусство Азербайджана. Сб.статей. Вып. VIII. – Б., Элм, 1962. – с. 5-35.

[7] Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). - B.: Adiloğlu, 2002.; Azərbaycan musiqisi və təsviri sənət. – B.: Oğuz eli, 2010.; Azərbaycan folklorunda çalğı alətləri. – B.: Adiloğlu, 2007.; Azərbaycan xalq çalğı alətlərinin öyrənilməsinin əsas istiqamətləri.//Azərbaycan milli musiqisinin tədqiqi istiqamətləri: I respublika elmi konfransının materialları (Bakı Musiqi Akademiyası, 17-19 dekabr, 1991-ci il). – B., 1992, s. 94-96; Çalğı alətlərimizin yayılma hüdudları // Tarixi yaşadan unudulmuş musiqi alətləri. Elmi məqalələr toplusu. – B., Mütərcim, 2011, s.27-46.; Həyata qaytarılmış musiqi alətləri (ud, qanun) – “Elm və həyat”, 1966, N 7, s. 31-32; Səfiəddin Urməvinin ixtira etdiyi alətlər. – “Qobustan”, 1988, N 3, s. 66-67; Zərb və simli xalq çalğı alətlərimiz. – “Elm və həyat”, 1969, N 9, s. 26-28.

məlumat yazmışdır.[8] Alətin ədəbi mənbələrinə, quruluşuna, simlərinə dair məlumatlar maraqlı olduğu qədər də dəqiqdir.

Ü.Hacıbəyli adına BMA-da milli musiqi alətlərinin elmi-parktik bərpası və onların müasir ifaçılıq sənətində tətbiqi sahəsində ciddi tədqiqatlar aparan və nailiyyətlər əldə edən elmi labortariyanın, başda onun rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, prof. Maya Qafarova olmaqla, əməkdaşları tərəfindən yazılan dərs vəsaitlərində, metodik vəsaitlərdə və məqalələrdə milli musiqi alətlərinin tarixi, quruluşu, ifaçılıq ənənələri, peşəkar ifaçıları haqqında məlumatlar verilmiş, nəticələr əldə olunmuşdur.

Azərbaycan Milli Konservatoriyasının professoru, xalq çalğı alətlərinin peşəkar və mahir ifaçısı, alətşünaslıq sahəsində görkəmli tədqiqatçın sənətşünaslıq üzrə elmlər doktoru, prof. Abbasqulu Nəcəfzadənin lüğətində və dərs vəsaitində,[9] eləcə də sənətşünaslıq üzrə fəlsəfə doktoru Fuad Əzimlinin tərtib etdiyi lüğətdə[10] qanuna dair verilən əvvəlki məlumatlarlar əsasında yığcam lüğəti informasiyalar yazılmış, bəzi poeziya mənbələrinə istinad olunmuşdur.

Son illər musiqişünaslıqda simli xalq çalğı alətlərindən ayrıca olaraq tar, kamança və səntur, nəfəslilərdən isə ayrıca olaraq ney aləti xüsusi tədqiqatlara cəlb olunmuş, hər biri haqqında dissertasiyalar yazılmışdır. Zərb alətləri qrupuna, nəfəsli və idiofonlu alətlərə həsr olunan dissetasiyaları da qeyd etməliyik.[11] Qanun haqqında ilk dəfə əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Təranə Əliyeva xüsusi tədqiqat aparmış, "Azərbaycan qanunu yatıq simli alətlər sırasında" adlı dissertasiya yazmışdır. Görkəmli qanun ifaçısı və pedaqoqu bu dissertasiyasında qanun alətinə elmi yanaşmaları yeni faktlar və təhlillər əsasında inkişaf etdirmiş, qanunu yatıq simli alətlər qrupunda geniş şəkildə araşdırmışdır.[12]

Azərbaycanda etnoqrafiya alimlərinin və folklorşünasların da çalğı alətlərinə dair maraqlı araşdırmaları vardır. Məsələn, tarix elmləri doktoru,

---

8 Kərim M.T. Azərbaycan musiqi alətləri. Dərs vəsaiti. – B., Mütərcim, 2011.

9 Nəcəfzadə A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti.- B., Min bir mahnı MMC, 2004.; Xalq çalğı alətlərinin tədrisi metodikası. Dərs vəsaiti. – B., MBM, 2007.

10 Əzimli F.N. Azərbaycan xalq musiqisinin qısa lüğəti. – B., Hərbi nəşriyyat, 2000.; Əzimli F.N. Musiqi alətlərimizin adları. – B., Təfəkkür NPM, 2004.

11 Əzimli F.N. Musiqi alətlərimizin adları. – B., Təfəkkür NPM, 2004.; Nəcəfzadə A.İ. Azərbaycan idiofonlu çalğı alətləri (orqanoloji-tarixi tədqiqat). – B., MBM, 2010.; Nəcəfzadə A.İ. Azərbaycan nəfəs alətləri (ortanoloji-tarixi tədqiqat): sən. nam.... dis. avtoreferatı. – B., 2006.

12 Əliyeva T.M. Azərbaycan qanunu yatıq simli çalğı alətləri sırasında – Sənətş. üzrə fəl.d....təqdim olunan dissertasiya. – B.: 2011.

professor Teymur Bünyadovun "Əsrlərdən gələn səslər" monoqrafiyasında, tədqiqatçı Əbülfəs Hüseyninin "Orkestrin ulu babası" məqaləsində xalq çalğı alətlərimizdən, qədim dövrlərə aid arxeoloji təsvirlərdəki alətlərdən bəhs olunur, qanun aləti ilə bağlı mülahizə və faktlar irəli sürülür.

Qanun alətinə dair bütün musiqişünaslıq, mənbəşünaslıq, publisistik, pedaqoji işləri tədqiqatlarımızda dərindən öyrənmiş, təhlil etmiş, bəzi ideya və mülahizələrdən elmi məqsədlə bəhrələnmişik. Lakin görülən işlərin elmi dəyərini yüksək qiymətləndirməklə yanaşı, bu dissertasiyada qanun aləti haqqında yeni araşdırma, mülahizə və nəticələr əldə etməyi qarşımıza məqsəd qoymuşuq.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə dissertasiyada qanun alətinin tarixi-mədəni konsepsiyası işlənilmişdir, indiyə qədər qanun haqqında aparılan araşdırmalar təhlil olunmuş, alətin konkret tədqiqat aspektləri göstərilmişdir. Qanun alətinin simli alətlər qrupunda tarixi, morfoloji, erqoloji, ifaçılıq xüsusiyyətləri və özünəməxsusluğu müəyyən olunmuşdur Tarixi-müqayisəli metod əsasında qanun alətinin tarixi morfologiyası tədqiq olunmuş, alətin tarixi mənşəyi, etno-mədəni mənsubluğu, tarixi təşəkkül və təkamül prosesləri, təkmilləşmə və forma dəyişikliyi kimi mühüm məsələlər tarixi-morfoloji metodla tədqiq olunmuşdur. Bunlar aşağıdakı müddəalarda göstərilmişdir:

- qanun alətinin tarixi yaranışı və mənşəyi çəng aləti ilə əlaqələndirilmiş, qanun alətinin tarixi yaranışı "çəngdən qanuna" təkamül prinsipi ilə öyrənilmişdir;
- qanun alətinin yalnız melodik alət olması haqqında fikirlərlə müqayisədə, bu alətə ilk dəfə çoxsəsli və harmonik-melodik ifaçılıq imkanlarına malik alət kimi yanaşılmış, qanunda bir neçə səsin şaquli xətt üzrə akkord kimi çalğısının mümkünlüyü nəzəri və praktik cəhətdən sübut olunmuşdur;
- qanun alətinin ifaçılıq tədqiqinə sistemli və müqayisəli metodla yanaşılmış, bu metod əsasında "qanunnövlülər" problemi qoyulmuş və dünya xalqlarının qanun növlü alətləri araşdırılımışdır;
- musiqişünaslıqda və alətşünaslıqda xalq çalğı alətləri çəng, qanun və santurun "arfa növlü", "sitra növlü", "simbal növlü" alət kimi adlandırılmasına tənqidi münasibət bildirilmiş, alternativ təklif irəli sürülmüşdür;
- səntur alətinə qanunnövlülər fəsiləsində yanaşılmışdır;
- qanun alətinin müasir ifaçılıq sənətində və müasir tədrisdə texniki və bədii imkanları araşdırılmış, qanun ifaçılığının inkişaf yolları və gələcək inkişaf perspektivləri müəyyən olunmuşdur;
- qanun ifaçılığına qanun tədrisi ilə əlaqədə yanaşılmış, hər iki sahə arasında qarşılıqlı təsirin olması irəli sürülmüşdür;

- qanun aləti üçün xalq rəqsləri və muğamlar çoxsəsli qaydada işlənilərək, dissertasiyaya daxil edilmiş, ilk dəfə onların ifasına dair metodik tövsiyələr irəli sürülmüş və yeni çalğı ştrixləri və onların izahı təklif olunmuşdur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi onun mövzusu, obyekti və predmeti ilə bağlıdır. Qarşıya qoyulan əsas məqsəd qanun alətini mizrablı-simli alətlər qrupunda araşdırmaqdan, Azərbaycan musiqi tarixində qanun alətinin tarixi-mədəni, etnoorqanoloji və ifaçılıq aspektlərini tədqiq etməkdən ibarətdir. Bu məqsədləri həyata keçirmək üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- ayrılıqda götürülmüş hər bir xalq çalğı alətinin musiqişünaslıq tədqiqatını vacib və aktual elmi məsələ kimi əsaslandırmaq;
- xalq çalğı alətinə sistemli və kompleks yanaşma metodunu qanun aləti əsasında həyata keçirmək;
- Azərbaycan musiqi-ifaçılıq sənətində simli xalq çalğı alətlərinin yerini və rolunu müəyyən etmək, qanun alətinin tarixi, morfoloji,erqoloji, ifaçılıq xüsusiyyətlərini müəyyənləşdirmək;
- qanun alətinin tarixi morfologiyasını tədqiq etmək, tarixi köklərini, təşəkkül və təkamül mərhələlərini, təkmilləşmə proseslərini tədqiq etmək;
- alətin "eyni növlü alətlər" kontekstində araşdırmaq, qanun ilə eyni növlü alətləri müəyyən etmək və onları tarixi-müqayisəli metodla araşdırmaq;
- qanun alətinin ifaçılıq aspektini və müasir dövrdə ifaçılıq sənətində yerini və rolunu araşdırmaq; ifaçılıq imkanlarını və onun həm melodik, həm də çoxsəsli alət olduğunu əsaslandırmaq;
- qanun aləti üçün Azərbaycan xalq rəqs nümunələrini və muğamlarını işləmək, alətin ifaçılıq və tədris repertuarını zənginləşdirmək; yeni texniki və bədii üsullar daxil etmək, alətin ifaçılıq perspektivlərini aşkar etməkdir.

**Dissertasiyanın metod və metodologiyası.**Tədqiqat işi qanun alətinin ifaçılıq aspektlərinə həsr olunduğu üçün etnoorqanologiyanın sistemli və kompleks yanaşma metodu əsas götürülmüşdür. Bununla yanaşı, tədqiqat işi musiqişünaslığın tarixi-mədəni, tarixi-müqayisəli, tarixi-morfoloji tədqiqat metodları əsasında aparılmışdır. Musiqişünaslıqda simli alətlər haqqında tarixi fikirlərə elmi-analitik yanaşma tətbiq edilmiş, qanun alətinin tarixi konsepsiyası tarixi-müqayisəli və tarixi-morfoloji metodlarla işlənilmişdir. Bu metodların qanun aləti üzərində işlənilməsi zamanı görkəmli xarici mütəxəssislərdən Henri Georq Farmer, Kurt Zaks, Henrix M. fon Hornbostel, Antonun Modr, Roman Qruber, Viktor Belyayev, Konstantin Aleksandroviç Vertkov, Feyzulla Karomatov, Otanazar Matyakubov, İqor Masiyevski, Tamara Vızqo, Mixail İosifoviç İmxanitski, Bahaeddin Ögel, İsmail Hakkı

Özkan, Ayhan Sarı, Gültekin Aydoğdu, İsmail Şençalar, Saule Uteqaliyeva, Azərbaycan musiqişünas-mütəxxəssilərdən Üzeyir Hacıbəyli, Əfrasiyab Bədəlbəyli, Qubad Qasımov, Firidun Şuşinski, Səadət Abdullayeva, Vaqif Əbdülqasımov, Gülnaz Abdullazadə, Məcnun Kərim, Fəttah Xalıqzadə, Əvəz Rəhmətov, Akif Quliyev, Məmmədağa Kərimov, Abasqulu Nəcəfzadə, Malik Quliyev, Rafiq Musazadə,Maya Qafarova, Təranə Əliyeva, Seyran Qafarovun və Elmira Axundova musiqi alətləri haqqında elmi-metodoloji yanaşmalarına, kompleks tədqiqat və təsnifatlarına, mövzu və problemlərinə, nəzəri və tarixi mülahizələrinə, tarixi-müqayisəli araşdırmalarına, sistemli yanaşmalarına, ifaçılıq haqqında elmi fikirlərinə istinad olunmuşdur. Bu mütəxəssislərin məqalə, monoqrafiya və dərs vəsaitlərində qaldırılan məsələlərdən, musiqi alətlərinə tarixi və nəzəri münasibətlərdən, ümumi elmi-metodoloji yanaşmalardan, konkret isə qanun alətinə dair fikirlərdən tədqiqatımızın predmeti və obyekti, eləcə də məqsədi və vəzifələri əhatəsində bəhrələnmişik.

**Tədqiqatın predmeti və obyekti.**Təqdim olunan tədqiqat işinin mövzusu və aktuallığı özündə tədqiqatın obyektini və predmetini də ehtiva edir. Azərbaycan musiqi tarixində və ifaçılıq sənətində öz yeri və rolu olan hər bir xalq çalğı aləti musiqişünaslıq tədqiqatının **obyekti**ni təşkil edir. Bu tədqiqatımızın obyekti simli çalğı alətlərindən olan qədim qanun alətidir. Konkret olaraq, bu tədqiqatımızın predmeti onun obyektindən irəli gəlir. Belə ki, ifaçılıq sənətində qanun alətinin tarixi təşəkkülü, təkamülü, inkişafı və qanun ifaçılığının müasir vəziyyəti məsələləri tədqiqatın **predmetini** təşkil edir.

**Dissertasiyanın elmi-nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın əsas müddəalarından və nəticələrindən alətşünaslıq üzrə gələcək elmi tədqiqatlarında istifadə oluna bilər. İfaçıların musiqi alətləri haqqında biliklərinin artırılmasında hər bir yeni tədqiqat kimi, bu dissertasiya da müsbət rol oynaya bilər. Bundan başqa, dissertasiyada milli musiqi alətinə yanaşmanın metodologiyası istər musiqi tarixinə, istər musiqi alətlərinə dair gələcək tədqiqatlar üçün nəzəri-metoloji əhəmiyyətə malik ola bilər. Qanun üçün nota yazdığımız xalq rəqs nümunələri və muğam nümunələri ifaçılar və qanun alətini tədris edən müəllimlər tərəfindən dərs vəsaiti kimi istifadə edə bilər. Azərbaycan Respublikasında ali musiqi təhsili verən təhsil müəssisələrində, eləcədə orta ixtisas təhsili verən təhsil müəssisələrində, musiqi kolleclərində, Bülbül adına orta ixtisas musiqi məktəbində, AMK yanında İncəsənət gimnasiyasında dissertasiyanın tarixi və nəzəri müəddaları tətbiq oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işinin tarixi, nəzəri, metodoloji və təhlil hissələri Azərbaycan Milli Konservatoriyasının doktorantura

şöbəsində yerinə yetirilmişdir. İddiaçının dissertasiyası "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında müzakirə olunub. Dissertasiya mövzusu ilə bağlı Azərbaycanda və xarici ölkələrdə keçirilən Beynəlxalq konfranslarda və jurnallarda məqalələr dərc olunub.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, üç fəsildən, altı yarımfəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyat siyahısından, notoqrafiyadan, saytoqrafiyadan və əlavədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I Fəsli "Azərbaycan musiqişünaslığında qanun alətinin müasir tədqiqat aspektləri"** adlanır və iki bölmədən ibarətdir. **1.1. "Qanun alətinin etnoorqanologiyası" -** Azərbaycanın qədim xalq çalğı alətlərindən olan qanun alətinin elmi tədqiqində qarşıya çıxan mühüm vəzifələrdən biri də onun haqqında məlumat verən bütün mənbə və məxəzləri kompleks şəkildə aşkar etməkdən, onları sistemləşdirməkdən, onların verdiyi məlumatları müqayisə və təhlil etməkdən, alətə dair tədqiqatları və nəticələri təhlil yolu ilə araşdırmaqdam ibarətdir. Azərbaycan xalq çalğı alətlərinin görkəmli tədqiqatçısı, sənətşünaslıq doktoru, professor Səadət Abdullayeva xalq çalğı alətlərinin kompleks şəkildə araşdırılmasını mühüm bir məsələ kimi səciyyələndirir və bu məsələyə belə aydınlıq gətirir: "Çalğı alətləri – xalqların mədəniyyətinin mühüm göstəricisidir. Onların müxtəlif növlərinin geniş istifadəsi, şübhəsiz, bir çox əsrlər boyu formalaşan və inkişaf edən zəngin, özünəməxsus incəsənətin olmasına dəlalət edir..., - alim daha sonra fikrinə davam edərək, xalq çalğı alətləri sahəsində musiqişünaslığın aktual məsələlərini belə şərh edir: **"**Musiqi alətlərinin inkişaf tarixi, quruluş və akustik xüsusiyyətlər, bədii-ifa imkanları, istifadə sahəsi, miqrasiya, terminologiya və etimologiyası, eləcə də onların təkmilləşdirilməsi və bərpası – müasir musiqişünaslığın aktual məsələlərindəndir".[13] Şübhəsiz, burada "yeni dövr" ifadəsi XX əsrə və müasir dövrə şamil oluna bilər. Lakin ən başlıcası budur ki, mənəblərin təsnifatı qanun alətinin mənbəşünaslığı ilə yanaşı, bu alətə kompleks və

---

[13]Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). - B.: Adiloğlu, 2002. s.3

sistemli yanaşılması baxımdan vacib elmi-metodoloji əhəmiyyət daşıyır.

Mənbələr üzərində dayanmaqdan öncə bir mühüm məsələni də qeyd edək ki, alətin adı XX əsrə qədər olan yazılı mənbələrdə "qanun" kimi çəkilmişdir. XX əsrdə Ü.Hacıbəyli də öz məqalələrində alətin adını "qanun" şəklində yazmışdır.[14] Lakin XX əsrin ikinci yarısından sonra müxtəlif yazılı mənbələrdə, orkestr partiturasında, dərs vəsaitlərdə, metodik tövsiyələrdə, not yazılarında alətin adı "qanun" adı ilə bərabər daha çox "kanon", bəzən də paralel olaraq "kanun", "qanon" kimi göstərilmişdir. Maraqlıdır ki, hələ 1969-cu ildə Ə.Bədələyli alətin haqqında "qanon (qanun)" adı ilə məlumat vermişdir.[15] Lakin XX əsrin sonu - XXI əsrin əvvəllərindən etibarən alətin adı, olduğu kimi, yəni "qanun" şəklində yazılmağa başlamışdır.

Azərbaycan yazılı ədəbiyyatı qanun haqqında bəzi örnəklərə malikdir. Əbülqasim Firdovsi (IX-X əsrlər) "Şahnamə" poemasında, Nizami Gəncəvi (XII əsr) "Leyli və Məcnun" və "İskəndərnamə" poemalarında, Əssar Təbirizi (XIV əsr) "Mehr və Müştəri" poemasında, Qazi Bürhanəddin (XIV əsr) şeirlərində, İmadəddin Nəsimi, Həbibi, Nemətullah Kişvəri (XIV-XV əsrlər) qəzəllərində, Məhəmməd Füzuli (XVI əsr) "Həft cam" poemasında, Seyid Əbülqasim Nəbati (XIX əsr) qəzəllərində qanun alətinin adı çəkilmişdir. Orta əsrlərdə yaşayıb-yaratmış bu görkəmli Azərbaycan şairlərinin poeziya əsərlərinə istinad edərək deyə bilərik, qanun IX-XIX əsrlərdə Azərbaycan professional çalğı aləti olmuş və saraylarda, musiqi-şeir məclislərində, sufi-ürfan, saqi məclislərində və musiqi həyatının digər məqamlarında sənətkarlar tərəfindən ifa edilmişdir.

Orta əsrlərin musiqişünas alimləri öz musiqi risalələrində simli alətlərə xüsusi fəsillər ayırmışdılar ki, professor Zemfira Səfərova XIII əsrin məşhur musiqi alimi, ifaçı, şair və xəttat Səfiəddin Urməvinin (1217-1294) "Kitabül-ədvar" risalələrini şərhləndirmişdir. Professor S.Abdullayeva XIV - XV əsr musiqi alimi Əbdülqadir Marağalının (1353-1434) risalələrinə, onun "Musiqi alətləri və onların növləri" əsərinə,[16] eləcə də musiqişünas-alim S.Ağayevanın Əbdülqadir Marağalı haqqında tədqiqatlarına[17] istinadən yazır ki, Ə.Ma-

---

[14] Hacıbəyov Ü.H. Şərq musiqisi haqqında Qərb alimlərinin təfsiri. //Seçilmiş əsərləri. II c. - B., Azərb.SSR EA nəşriyyatı, 1965, s. 233-238.

[15] Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti - B.: Elm, 1969, 32-33 s.

[16] Marağalı Ə. Musiqi alətləri və onların növləri (farscadan tərcümə M.Müsəddiq). – "Qobustan", 1977, N 1, s.74-79.

[17] Агаева С.Х. Абдулгадир Марагаи. – Б.: Язычы, 1983. - 98 с.; Агаева С.Х. Из истории музыкальной культуры Азербайджана (Абдулгадир Мараги). //Музыка народов Азии и Африки. Сб.статей. Вып. третий. – М.: Сов.композитор, 1980. – с. 243-260.

rağalı 40-dan artıq musiqi alətindən bəhs etmişdir. Simli alətləri o iki yarımqrupa ayırır: müqəddəyat və mütləqat. Birinci yarımqrupa o alətlər aid edilir ki, onları çalarkən simləri barmaqlarla sıxılır; ikinci yarımqrupa aid edilən alətlər isə çalınarkən barmaqlar iştirak etmir, hər bir sim özlüyündə səs mənbəyi olur. Ə.Marağalı tərəfindən çəng, ikri**, qanun** (kursiv bizimdir – N.H.), sazi-dulab, yatuğan, kinkərə alətləri aid olunmuşdur.

XIX əsrdə Qarabağda yaşayıb-yaratmış Azərbaycan musiqişünası, ifaçı, şair, xəttat, maarifçi Mir Möhsun Nəvvab "Vüzuhül-ərqam" risaləsinin "Musiqi alətləri" hissəsində alətlərin bölgüsünü vermişdir. simli alətlər və nəfəs alətləri. Simli alətlərə saz, ud, çəng, nüzhət, **qanun**, tanbur, tar aid edilmişdir.[18]

Heydər Əliyev fondunun layihəsi olan "Muğam ensiklopediyası" milli musiqi alətlərinə dair məlumatlarla zəngindir. Bu ensiklopediyada digərlərindən fərqli olaraq, alətin adı "qanon", mötərizədə "qanun" yazılmışdır: "Qanon (qanun) - ən qədim Azərbaycan dartımlı simli musiqi alətlərindən biridir deyə qeyd olunmuşdur.

Qanun aləti, istərsə də qanun növlü alətlər, o cümlədən, çəng və santur aləti orta əsrlər dövrünün miniatür əsərlərində təsvir olunmuşdur. Bu əsərlərdə alətin təsvirindən əldə etdiyimiz əsas məlumat budur ki, qanun və qanun növlü alətləri professional ifaçılıq alətləri olmaqla, həm də saray musiqi məclislərində ifa edilmişlər. Məsələn, Ə.Firdövsinin "Şahnamə", N.Gəncəvinin "Xəmsə", Ə.Nəvainin "Divan" və "Xəmsə" əsərlərinə, Əmir Xosrov Dəhləvinin divan küliiyatına çəkilən miniatürlərdə musiqi alətlərinin, o cümlədən, qanunun təsviri tədqiqatçılarının marağına səbəb olmuşdur.

Biz, bu xalq çalğı aləti haqqında məlumat verən mənbələrə ensiklopediyaları və lüğətləri də daxil edirik. On cilddən ibarət "Azərbaycan sovet ensiklopediyası" III cildində qanun haqqında belə yazılmışdır: "QANUN, kanon – simli musiqi aləti. Yaxın və Orta Şərqdə geniş yayılmışdır. Azərbaycan klassiklərindən Nizami, Füzuli və b.-nın əsərlərində qanun haqqında məlumat verilmişdir.

Qanun və digər musiqi alətləri haqqında məlumat verən ensiklopediyalardan biri də Moskvada rus dilində işıq üzü görən 6 cilddən ibarət "Musiqi ensiklopediyası" nəşridir. Ensiklopediyanın II cildində qanun haqqında məlumat rus dilində "Kanon" adlı məqalədə verilmidir. Burada kanon alətinin simli dartımlı alət olduğu, Yaxın və Orta Şərq ölkələrində "kanun", "qanun" adı ilə tanındığı bildirilmişdir.

---

[18] Nəvvab M.M. Vüzuhül-ərqam (Risaləni çapa hazırlayan, ön söz və şərhlərin müəllifi Zemfira Səfərova). - B.: Elm, 1988. - 84 s.

Azərbaycanda XX əsrdə ilk musiqi lüğəti - görkəmli bəstəkar, dirijor, musiqişünas Əfrasiyab Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğəti" 1969-cu ildə nəşr olunsa da, bu günə kimi aktuallığını qoruyub-saxlamaqdadır. Ə.Bədəlbəyli qanun aləti haqqında belə məlumat vermişdir.

Bu məlumatda qanun alətinin adı iki cür göstərilmişdir: qanon və qanun.Ə.Bədəlbəyli yazılı şəkildə alətin adını müasir dövrdə olduğu kimi, yəni "qanun" şəklində işlətmişdir ki, əslində, bu ad alətin orta əsr mənbələrindəki yazılışı ilə eynidir.

Ü.Hacıbəyli 1925-ci ildə yazdığı "Azərbaycan musiqi həyatına bir nəzər"məqaləsində ilk dəfə olaraq, Azərbaycan xalq çalğı alətlərinin təsnifatını aparmışdır. Təsnifatda xalq çalğı alətlərini üç növə bölmüşdür: simlilər, nəfəs alətləri, zərblilər. Bu bölgü prinsipi alətlərin səsoyadıcı vasitəsinə əsaslanır. Musiqi alətləri üzərində bu prinsiplə bölgü aparılması hələ orta əsrlərdə Şərq musiqişünaslığında tətbiq edilmişdir. S. Ürməvinin (XIII-XIV), Ə.Marağayinin (XV), M.M.Nəvvabın (XIX) risalələrində musiqi alətlərinin sistemləşdirilməsinə bu amil əsasında yanaşılmışdır. Ü.Hacıbəylinin simli alətlərə verdiyi bölgü, xüsusilə də, simliləri "qısasəsli" və "uzunsəsli" deyə iki qrupa ayırması müasir etnoorqanologiya üçün çox maraqlıdır. Bu yanaşmada simin qısasəsli və uzunsəsli olması alətin çalğı vasitəsindən asılıdır: mizrab və kaman (yay). Əgər Ü.Hacıbəylinin alətlərə dair bölgü prinsipinə əsaslansaq, o zaman qanun alətini, şübhəsiz ki, "simli alətlər" və ya "tellilər" qisminə aid etmək olar, dahi bəstəkarın təsnifatına əsaslanaraq, daha dəqiq və konkret desək, qanun qısassəsli simli alətlərdəndir.

Ü.Hacıbəyli "Şərq musiqisi haqqında Qərb alimlərinin təfsiri" (1926) məqaləsində qanun aləti haqqında geniş məlumat vermiş, Şərq musiqisinin tədqiqatçılarından olan Kizevetterinin, Ambrosun, Razmadzenin adını çəkmişdir.

Beləliklə, nəticə çıxarırıq ki, qədim Azərbaycan çalğı alətlərindən biri olan qanun haqqında respublikamızda musiqişünaslıq tərəfindən araşdırmalar aparılmışdır. Bu alət haqqında ilk elmi və məqsədyönlü araşdırmalar professor S.Abdullayevaya məxsusdur. S.Abdullayeva ilk dəfə olaraq, qanun alətinin tarixi mənşəyi, quruluşu, hissələri, simləri, diapazonu, transpozisiyası, ifa qaydası, kökü, xalq və ənənəvi peşəkar ifaçılıq sənətində yeri, texniki və bədii ifa imkanları, orkestr və ansambllarda istifadəsi, eynitipli növləri haqqında məlumatlar vermişdir. S.Abdullayevanın bu araşdırma və məlumatları qanun alətinin gələcək tədqiqatlarına, tədrisdə geniş tətbiq olunmasına müsbət təsit göstərmiş, Azərbaycanda etnoorqanologiya elminin inkişafına ciddi zəmin yaratmışdır. 

Qanun alətinin diapazonu böyük oktavanın sol səsindən üçüncü oktavanın si səsinə qədərdir: 


Alətin diapazonunun əhatə etdiyi diatonik səsdüzümü üç registrdən ibarətdir:

Çalğı zamanı alətdə barmaqların vəziyyəti, qamma, qlissando, passaj, arpecio, akkord, interval imkanları və kökü aqqında oxuyuruq: "Not yazısında sağ əlin şəhadət barmağı 1, sol əlin müvafiq barmağı 2, sağ alin baş və orta barmaqları müvafiq olaraq 3 və 4, sol əlin baş və orta barmaqları – 5 və 6 rəqəmləri ilə göstərilir. Arpecio, akkordlar və zəif səslənmədə hər iki əlin bütün barmaqları iştirak edir. Simlərin səs ucalığını linglər vasitəsilə yarımton artırmaq və ya azaltmaq mümkün olduğuna görə, qanunda bütün bemollu və diyezli qammalardan istifadə edilir. Çalınma texnikası arpecio, qlissando, passaj və başqa üsullardan istifadə etməyə imkan verir:



Sekunda, tersiya, kvarta və kvinta intervallarını götürmək olur:



Qoşanotlar, seksta, septima və oktava intervalları tremolo ilə alınır. Oktavadan böyük intervalları, üç və dördsəsli akkordları götürmək mümkündür:



Orkestrdə, ansambllarda və solo çalanda alət in D ("Rast" kökü) köklənir."[19]



*Azərbaycan Tarix Muzeyindəki XVIII əsrə məxsus olan Azərbaycan qanunu*

Elm sahəsində Səadət Abdullayevanın yetişdirməsi və davamçısı olan sənətşünaslıq doktoru, professor Məcnun Kərimin Azərbaycan qədim xalq çalğı alətlərinin elmi-praktik bərpasında, təkmilləşdirilməsində və onların musiqi-ifaçılıq sənətinə qaytarılmasında, alətlərin tədqiq olunmasında, yeni mənbələrun aşkar edilməsində bir alim kimi böyük rolu vardır. Xüsusilə, M.Kərimin "Azərbaycan musiqi alətləri" dərsliyində qanun aləti haqqında oxuyuruq: "Adətən, diz üstə çalındığı üçün ilkin adı *"yatıq saz"* olmuşdu. "Yatıq" kəlməsi türk sözü olub "yastı", "yarağan",

[19] Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri. - B.: Adiloğlu, 2002. s. 227-228

“tənbəl” mənalarını verir. Dartımlı-simli Şərq musiqi alətidir.”[20] Sənətşünaslıq namizədi, tar ixtisası üzrə tanınmış pedaqoq, musiqi alətlərinin tədqiqatçısı Əvəz Rəhmətov “Azərbaycan xalq çalğı alətləri”, “Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri” adlı monoqrafiyalarına qanun alətinin tarixinə dair mülahizələrini bildirmiş, alətin diapazonu, səsdüzümü, kökü, partiturada yeri haqqında məlumatları oxucularla bölüşmüşdür.

Sənətşünaslıq namizədi Fuad Əzimlinin lüğəti əhəmiyyət daşıyan “Musiqi alətlərimizin adları” kitabında da qanun alətinə dair maraqlı məsələlərdən bəhs olunur. Qanun aləti haqqında 2011-ci ildə dosent Təranə Əliyeva tərəfindən “Azərbaycan qanunu yatıq simli çalğı alətləri sırasında” adlı ilk dissertasiya yazılmışdır. Bu qiymətli tədqiqat işinin elmi rəhbəri prof. S.Abdullayeva olmuşdur.

Bu dissertasiyada qanunun yatıq simli çalğı alətləri sırasında tarixi araşdrılımış, onun texniki və bədii imkanları aşkar olunmuş, tədrisinə, təkmilləşməsinə, ansambl və orkestrlərdəki yerinə və roluna dair maraqlı fikirlər irəli sürülmüşdür. Araşdırdığımız tədqiqat istiqamətləri belə deməyə əsas verir ki, Azərbaycan musiqişünaslığında qanun alətinə üç münasibət hökm sürür: 1. Qanun - yatıq simli çalğı alətidir; 2. Qanun – mizrablı simli çalğı alətidir; 3. Qanun – dartımlı simli çalğı alətidir. Qanun alətinə “yatıq simli alət” kimi yanaşılması alətşünaslıqda son illərin tədqiqat məhsuludur.

Təsnifat problemini araşdırarkən qeyd etməliyik ki, XX əsrin əvvəllərində dünya xalqlarının musiqi alətləri Avstriya etnomusiqişünası Erix Moris fon Hornbostel (1877-1935) və Alman etnomusiqişünası Kurt Zaks (1881-1959) tərəfindən birlikdə sistemləşdirilmiş və onların müfəssəl təsnifatı aparılmışdır. Elmə “Hornbostel-Zaks sistemləşməsi” və ya “Hornbostel-Zaks təsnifatı” adı ilə daxil olan bu metod beynəlxalq musiqişünaslıqda ən universal və ətraflı sistemləşmə kimi qəbul edilir. Onu da qeyd edək ki, Hornbostel-Zaks təsnifatı ilk dəfə 1914-cü ildə bir elmi-etnoqrafik jurnalda dərc olunmuşdur.

Qeyd etmək vacibdir ki, Azərbaycan xalq çalğı alətlərinin təsnifat sxemində simli alətlər ilk dəfə prof. S.Abdullayeva tərəfindən qruplaşdırmışdır. O, simliləri “mizrablılar”, “kamanlılar” və “zərblilər” qrupuna bölmüşdür. Lakin bu təsnifata biz barmaqla çalınan simliləri də daxil etmişik.

Cədvəlimizi şərh edərkən ilk növbədə bildirmək istəyirik ki, hər bir alətin göstəricilərinə, xüsusiyyətlərinə bütöv və kompleks halda yanaşılması etnoorqanologiyanın müasir prinsip və metodlarından biridir.

---

[20] Kərim M.T. Azərbaycan musiqi alətləri. Dərs vəsaiti. – B., Mütərcim, 2011. - 96 s.

| Alətin adı | Növü, Təsnifatı | Səs-oyadıcı material | Çalğı vasitəsi | Qrupu | Quruluşu | Forması | Tutulma qaydası | Tətbiqi |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Çalğı üsulu | Yarım qrupu | | | | |
| Qanun | Simlilər | sim | mizrab | Simlidartımlı | Dördbucaqlı trapesiya | Çanaqsız və gövdəli | Diz üzərində, üfüqi-səthi vəziyyətdə | Peşəkar ifaçılıq |
| | | | Dartma | Simli-Mizrablı | | | | |

**1.2. Qanun alətinin tarixi morfologiyası -** Qanun alətinin özünəməxsus tarixi morfologiyası, tarixi təşəkkülü, təkamülü və inkişaf qanunauyğunluqları vardır. Bu qədim alət hazırki formasını, quruluşunu alana qədər onun yaranma və formalaşma mərhələsi, sonra müxtəlif forma və konstruksiya növləri meydana gəlmiş, alət fərqli adlarla musiqi tarixinə düşmüş, tədricən yeniləşmiş və təkmilləşmişdir. Bizim qanun alətinin tarixi təşəkkülü haqqında konsepsiyamız belə mülahizədən ibarətdir ki, qanun aləti öz tarixi təşəkkülünü və başlanğıcını çəng alətindən almışdır. Biz qanun və santuru eyni tipli alət hesab edirik və səntura qanunnövlü alət kimi yanaşırıq.

Çəng aləti, onun təkmilləşməsi və ifaçılıq sənətində müxtəlif növlərə malik olması, yeni formalar və ifa qaydaları alması nəticəsində qanun alətinə keçid baş vermişdir. İstisna deyildir ki, çəngnövlü alətlər müxtəlif adlar daşımışlar. Daha çox lira, çəng, çanq, çanqi, triqonon, kifara, harp, psaltor, forminks, nektis, maqadis, epiqolom, miztu, zaq-zal, Eol lirası, Orfey lirası, Skandinav lirası, çərx lirası, Şumer çəngi, Misir çəngi, Ərəb çəngi, İran çəngi və s. adlı bir neçə çəng növünün adı məlumdur[21]. Bizim tədqiqatlarımızın nəticəsinə görə qədim yunanların "lira" adlandırdığı çəng alətinin tarixi vətəni Yaxın və Orta Şərq olmuşdur: Misir, Ərəb yarımadası, Mesopotamiya, Babilistan, Midiya, Persiya, Cənubi Qafqaz, Orta Asiya, Bizans və s. Çəngnövlü alətlər bu ölkələrdə təşəkkül tapmış və dünyanın müxtəlif ölkələrinə yayılmışdır. Lira, çəng, qanun, səntur alətləri "arfanövlülər" kimi qruplaşdırılır. Çəng aləti və onun növləri çanağı olmayan, lakin gövdəyə və qola malik olan təksimli alət (monohord) kimi təşəkkül tapmış, tədricən azsimli, daha sonra çoxsimli alətə çevrilmişlər. Formasına görə qədim çəng aləti ayaq üstündə və oturaq vəziyyətdə də çalınmışdır. Daha çox isə oturaq

[21] Arfa alətinin tarixinə həsr olunan bəzi tədqiqatlarda həmin çəng-lira növlərinin və digərlərinin adı çəkilmişdir.

vəziyyətdə diz üzərində şaquli və ya üfüqi vəziyyətlərdə tutulmuşdur. Hordofonların tarixi təkamülünün ilk mərhələlərində də, ondan sonra da çəng növlü alətlərin hamısı yastı formada olmuş, ilk əvvəl barmaqla çalınmış, yeni forma aldıqca mizrabla və kamanla çalınan növləri meydana gəlmişdir. Orta əsr mənbələrinin təsdiq etdiyi kimi, Azərbaycanda çəng XVIII əsrə qədər kübar və peşəkar alət kimi yaşamışdır. Qanun alətinin tarixi kökündə dayanan çəng aləti forma baxımından qövsvari, təkbucaqlı, üçbucaqlı, dördbucaqlı şəklində olmuşlar. Çəng alətinin və ümumiyyətlə, bütün simlilərin əcdadı birsimli (monohord) kaman aləti hesab olunur. Çəngin qədim növləri arasında üçbucaq formalı çənglər ifaçılıq sənətində daha geniş yayılmışdı. Alətin quruluşuna gəlincə, üçbucaqlı çənglər gövdəsi və qolu olan təkbucaqlı çənglərə bir qol əlavə olunaraq yaranmışdır.

Üçbucaq formalı çəngin adına və təsvirinə Azərbaycanda orta əsrlərə aid poeziya, rəssamlıq, musiqişünaslıq və tarixi mənbələrdə rast gəlirik. Qətran Təbirizinin (XI), Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin (XII), Nəsiminin, Əssar Təbrizinin (XIV), Cahanşah Həqiqinin, Həbibinin və Kişvərinin (XV), Məhəmməd Füzulinin (XVI), Qövsi Təbrizinin (XVII) və b. əsərlərində bu alətin, eləcə də qanunun adı çəkilmişdir. Görkəmli orta əsr musiqişünasları Səfiəddin Urməvi (XIII), Əbdülqadir Marağalı (XV) öz risalələrində çəng və qanun alətlərinin adını çəkmiş, rəsmini vermişlər. H.C.Farmerə istinad edən prof. S.Abdullayeva Şükrüllah Əhmədoğlunun “Musiqi alətlərinin təsviri” (XV), anonim müəllifinin “Kənzül-Tühaf” (“Əntiqlər xəzinəsi”) (XVI) əsərlərində qanun ilə yanaşı çəng alətinin də təsvirinin verildiyini bildirir, habelə Ə.Marağalının eynilə çəngə oxşayan “ikri”[22] adlı alətdən bəhs etdiyini yazır.

Beləliklə, qanun alətinin tarixi morfologiyası e.ə.VI minillikdən etibarən, hələ Musa Peyğəmbər dönəmindən də əvvəl çəng alətindən başlanğıc almışdır. Qanun alətinin tarixi-morfoloji təkamülü “çəngdən qanuna doğru” tarixi inkişaf xətti ilə baş vermişdir. Çəng - peşəkar və folklor aləti kimi qədim Şərq musiqi ifaçılığında yaranmış, geniş yayılmış, müxtəlif adlarla Yunan, Roma, buradan da Asiya və Avropa ifaçılıq sənətinə miqrasiya etmişdir. Qanun və qanunnövlü bütün alətlərin təşəkkülü çəng alətinin təkamülü, inkişafı, təkmilləşməsi, yeni forma və növlərə malik olması nəticəsində baş vermişdir. Bu prosesdə yeni instrumental və vokal-instrumental janrların yaranması,

---

[22] Əbdülqadir Marağayinin çəngə oxşadaraq barəsində məlumat verdiyi “ikri” alətinin ağac dekası da olmuşdur. Bizcə, bu alət çəngin növlərindən biridir. Lakin onun adı çəngnövlü alət kimi XX əsr musiqişünaslığında qeyd olunmamışdır və bu alətə çəngnövlü kimi ilk dəfə yanaşırıq.

melodiya təfəkkürünün və musiqi zövqünün inkişafı, eləcə də peşəkar ifaçılıq sənətinin daim inkişaf etməsi, mədəniyyətlərin əlaqələri və alətlərin miqrasiyası mühüm rol oynamışdır. Qanun alətinin ilk tarixi tipləri diz üzərinə və yerə qoyularaq qucaqda üfüqi-səthi vəziyyətdə tutulub-çalınan dördbucaqlı çəng növlərindən intişar tapmışdır. Bu alətlər tədricən təkmilləşərək, dördbucaq-trapesiya formalı mizrablı-simli qanun alətini meydana gətirmişdir.

**II Fəsil "Dünya xalqlarının qanunnövlü alətləri və onların müqayisəli tədqiqi" adlanır -** Qanun alətinin ifaçılıq aspektlərinin tədqiq olunması "qanunnövlülər" problemini qarşıya mühüm vəzifə kimi qoyur. Bu problem ilk növbədə "eyni növlü alətlər", "eyni tipli alətlər" məsələsi ilə bağlıdır. XX əsrin görkəmli musiqişünas-alimləri K.Zaks, V.Belyayev, H.Farmer, S.Abdullayeva, K.Vetkov, İ. Masiyevski, T.Vızqo, F.Karomatov, A.Mexnetsov və b. xalq çalğı alətlərinin tədqiq olunmasında bu problemin vacibliyini və aktuallığı dəfələrlə vurğulamışlar. Onlar çalğı alətlərinin "eyni növlü", "eyni tipli", "etnik", "interetnik" "milli", "regional", "beynəlxalq", "millətlərarası" məsələlərini araşdırarkən bu məsələni də qaldırmış, bu istiqamətdə konkret tədqiqatlar və metodoloji vəzifələr həyata keçirmişlər.

Qanun alətinin, eləcə də qanun ilə eyni növlü olan alətlərin çoğrafi yayım arealı olduqca genişdir və dünya xalqlarının ifaçılıq sənətini əhatə edir. Təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə, müxtəlif Asiya və Avropa ölkələrində, türk və slavyan xalqlarında tətbiq olunan qanunnövlü alətlərin müqayisəli təhlili bu alətin tarixi, arealı, ifaçılığı haqqında kompleks elmi informasiya və təsəvvür əldə etmək baxımından olduqca vacib vəzifələrdən biridir. Digər tərəfdən, qanun alətinin tarixi, morfoloji və erqoloji xüsusiyyətlərinin aşkar olunmasında eyni növdən olan alətlərin müqayisəli araşdırılması çox vacib vəzifələrdən biridir. Beləliklə, qanun alətinə sistemli yanaşma ilk növbədə qanunnövlü alətlərin aşkar olunması, təsnifatı və onların müqayisəli araşdırılması kimi zəruri və aktual problemin həllini nəzərdə tutur.

Qanun ifaçılığı iki tarixi təkamül xəttinə malikdir:

**1. Dartımlı-simli qanunnövlülər (Qanun ailəsi)**

**2. Zərbli-simli qanunnövlülər (Səntur ailəsi)**

Dartımlı-simli qanunnövlülər əl və ya mizrab ilə ifa olunurlar. Bu alətlər etnoorqanologiya elmində "sitranövlülər" kimi qrupıaşdırılır. Biz isə onları "qanun ailəsi" adlanrıdırırıq.

Zərbli-simli qanunnövlülər isə qanun alətinin təkamülü və inkişafı nəticəsində onun yeni növü kimi meydana gəlmişlər. Onların forması qanun ilə oxşarlıq təşkil edir, lakin çubuqla və ya çəkiclə çalınırlar. Belə qanunnövlülər ailəsi bəzən elmi ədəbiyyatlarda "simbalnövlü alətlər" adlanırlar.

Biz isə qanunnövlülərin zərbli-simli qrupunu “səntur ailəsi” adlandırırıq.

Beləliklə, qanun növlü alətlər formasına, tutmaq qaydasına və çalğı tərzinə görə bizim tərəfimizdən iki növə bölünür:

**1. QANUN AİLƏSİ: dartımlı- simli qanunnövlülər**

**2. SƏNTUR AİLƏSİ: zərbli-simli qanunnövlülər**

Qanunnövlü alətləri adına və formasına görə iki qismə bölmək olar:

**1. “Qanun” adını daşıyan eyni tipli alətlər**

**2. “Qanun” adını daşımayan, lakin qanunla eyni növdən olan alətlər**

Qanun alətinin növləri ilk növbədə qanun/kanun adı daşıyan və forma, quruluş, ifa qaydası cəhətdən Azərbaycan qanun ilə oxşarlıq təşkil edən alətlər nəzərdə tutulur. Azərbaycan musiqişünaslığında qanunun həmişə üç növü göstərilmişdir: Misir qanunu, Bağdad qanunu, Türk qanunu. Biz isə eyni adı – qanun/kanun adını daşıyan və oxşaq quruluşa malik olan dartımlı simli alətlər, yən qanun növlü alətlərə aşağıdakı alətləri aid edirik:

**1. Azərbaycan qanunu; 2. Türk qanunu; 3. Ərəb qanunu; 4. İran qanunu**

Bu təsnifatda eyni adı daşıyan və eyni növlü olan alətlər Qədim Şərq regionuna daxildirlər. Qanun alətinin bu növlərini regional amil əsasında təsnifatlaşdırmışıq. Vacib məsələlərdən biri də “Ərəb qanunu” ilə bağlıdır. Bir qayda olaraq, Azərbaycan və Şərq musiqişünaslığında Misir və Bağdad qanunlarının adı çəkilir. Lakin orta əsrlərdə qanun aləti artıq ərəb xalqlarının yaşadığı bütün ərəb ölkələrində - Misir, İraq, Əlcəzair, Mərakeş, Suriya, Yəmən, Livan, Səudiyyə Ərəbistanı, Qətər və s. ifa olunurdu. Bu tarixi faktı nəzərə alaraq, biz bütün ərəb ölkələrində ifa olunan qanunları “Ərəb qanunu” adı ilə ümumiləşdiririk. Onların bəziləri arasında quruluş və simlərin sayı baxımdan cüzi fərq olsa da, artıq XIX əsrin sonlarından etibarən bu fərqlər də aradan qalxmışdır.Qanun (kanun) hal-hazırda bütün ərəb xalqları və ölkələrinin ən geniş yayılmış və sevilən simli alətlərinə daxildir. Eramızdan əvvəl isə bu alət müasir ərəblərin qədim vətəni Misirdə meydana gəlmiş, oradan Əlcəzairə və Mərakeşə, sonra isə İspaniyaya keçərək Avropada yayılmışdır. Bu baxımdan, ərəblərdə qanun ilk dəfə Misir qanunu kimi yaranmış, sonra isə Məğrib və Məşriq ərəblərinin xalq çalğı alətinə çevrilmişdir. O cümlədən, İslama qədər bu alət Suriyada, İraqda da yayılmışdır. Lakin İslam dininin ilk əsrlərində Abbasilər dövründə (X-XI) Bağdadın Ərəb xilafətinin paytaxtına çevrilməsi, ərəb elminin və mədəniyyətinin intibah yaşaması nəticəsində bu paytaxt şəhəri Yaxın və Orta Şərqin, Asiyanın musiqi elmi və ifaçılığı sahəsində də bir mərkəzə çevrilmişdi. Bağdadın fəlsəfə, poeziya və sənət məclislərində, əyləncəvi tədbirlərində simli alətlərdən ud, çəng, rübab kimi qanun də geniş tətbiq edilməyə başlamışdı.

İran qanununa gəlincə, maraqlı faktlardan biri də XII-XVI əsrlərdə İranda ən mükəmməl qanun ifaçılarının Təbrizin peşəkar Azərbaycanlı musiqiçilərindən ibarət olmasıdır. XV əsrdən etibarən qanun alətinin ifa olunduğu Şərq ölkələrində bu alətin peşəkar və görkəmli çalğıçılarına "Qanuni" ("Kanuni") təxəllüsü verilir.

Türkiyənin məşhur musiqişünas-alimi Rauf Yekta bəy qanun və səntur alətlərini "ərəblərin pianosu" adlandırmış, bununla alətin geniş ifaçılıq imkanlarına və professinal alət olduğuna eyham vurmuşdur. Onun bu fikrindən ərəb musiqisinin tədqiqatçısı, ingilis alimin C.Fermer də istifadə etmişdir. Yeri gəlmişkən, qeyd edək ki, alətşünaslıqda qanun aləti və qanunnövlülərdən olan səntur aləti Avropadakı klavişli alətlərin, o cümlədən royalın əcdadı hesab olunur.

Ü.Hacıbəyli Avropa musiqi tarixçisi, Şərq musiqisinin tədqiqatçısı Ambrosa istinadən ərəblərdə 12 növ qanun olduğunu birdirmişdir.[23] Bu baxımdan, orta əsrlərdə Misir, Bağdad, Ərəbistan, Suriya, Əlcəzair, Liviya, Oman, Qətər qanunları ölçü, diapazon, simlərin sayı və temperasiya göstəricilərinə görə fərqlənsələr də milli-ortaq mədəniyyət amilinin təsiri ilə belə fərqlər tədricən aradan qalxmışdır. Qeyd edək ki, XX əsrdən başlayaraq, Türkiyə qanununun da ölçüləri sabitləşmiş və digər ölkələrdə tətbiq edilən qanunlar üçün də morfoloji standarta çevrilmişdir. Fərq əsasən temperasiyalar ilə bağlıdır ki, bu da hər bir xalqın çoxəsrli ənənəvi muğam-makam sənətinin səs sistemindən, ifaçılıq, melodiya və lad özəlliklərindən irəli gəlir. 1913-cü ildə isə Türkiyədə tətbiq olunan qanun alətinə türk makam sənətinə müvafiq olaraq bütün makamlara uyğun mikrointerval sistemini (komma, bakiye, kiçik ton, tanini) əhatə edən mandallar (nizamlayıcılar) qoyulmuşdur. 1932-ci ildə Qahirədə keçirilən Beynəlxalq Şərq simpoziumunda isə ərəb makamlarının növ, say, quruluş, interval və temperasiya baxımından vahid qaydaları qəbul edilmiş və o zamandan qanun alətinin temperasiyası, ölçüsü, quruluşu və simləri bu qaydalara uyğun olaraq tənzimlənmişdir.

XVIII əsrdən etibarən isə İranda qanun alətinə maraq birmənalı şəkildə azalmış və o, ifaçılıq sənətində unudulmuşdur. Həmişə ərəb, sonra türk qanunlarının yer aldığı İran ifaçılıq sənətində XVIII əsrdən başlayaraq qanunnövlü alətlərdən yalnız səntur aləti bu günə də qədər ifa olunmaqdadır. Lakin XX əsrin ortalarından başlayaraq İranda ifaçıların şəxsi istəyi ilə

---

[23] Hacıbəyov Ü.H. Şərq musiqisi haqqında Qərb alimlərinin təfsiri. //Seçilmiş əsərləri. II c. - B., Azərb.SSR EA nəşriyyatı, 1965, s. 238.

Azərbaycan və Türkiyə qanunları çalınmağa başlamışdır. Hazırda İranda xalq çalğı alətləri ansambl və orkestrlərinə bu alət də daxil edilir.

Bütün bunları nəzərə alaraq, bir daha qeyd edirik ki, "qanun" adını daşıyan, forma, quruluş və ifa tərzinə görə oxşarlıq təşkil edən simli-mizrablı alətin yayım arealı məhz bu regionlardadır: Azərbaycan, Türkiyə, Ərəb ölkələri, İran. Digər tərəfdən, qanun alətinin bu regional növləri aşağıdakı parametrlərinə görə bir-birinə oxşayırlar: 1) hordofonlularda yeri; 2) adı; 3) forması; 4) quruluşu; 5) ölcüsü; 6) tərkib hissələri; 7) çalğı vasitəsi; 8) tutulmaq qaydası; 9) ifa qaydası; 10) tembri; 11) səslənməsi; 12) tətbiqi.

Bu göstərilən amillər qanunnövlü alətlərin tipoloji əlamətləridir və onları "eyninövlü alət" kimi qruplaşdırmağa əsas verir. Bu amillərə əsasən "qanun" adlı alətlərə eyninövlülər kimi yanaşıla bilər. İndi isə qanun alətini regional arealına görə növə bölünən "qanun" adlı aləti eyninövlü edən tipoloji göstəricilərə diqqət edək:

1. Hordofonlularda yeri: ***mizrabla çalınan dartımlı-simli alət***
2. Adı: ***qanun, kanun, kanon***
3. Forması: ***dördbucaq trapesiya***
4. Quruluşu: ***çanaqsız, gövdəli və yastı***
5. Ölçüsü: ***kiçik, orta, böyük***
6. Tərkib hissələri: ***gövdə, qol, aşıx, qulaqçıq, sim***
7. Çalğı vasitəsi: ***mizrab***
8. Tutmaq qaydası: ***diz üzərində və ya dayaq üzərində üfüqi-səthi***
9. İfa qaydası: ***mizrabla və iki əllə***
10. Tembri: ***incə, zərif***
11. Səslənməsi: ***çoxsəsli, melodik və harmonik***
12. Tətbiqi: ***peşəkar ifaçılıq***

Ümumi xüsusiyyətlər ilə yanaşı, bu qanunların fərdi-özəl göstəriciləri də vardır. Bu göstəricilər aşağıdakılardır: 1) ölçülər; 2) diapazon; 3) simlərin sayı; 4) temperasiya.

Yalnız Azərbaycan qanunu Avropanın müntəzəm temperasiyası ilə çalınır. Temperasiya baxımından Ərəb qanunun ərəb səs sisteminə, Türkiyə qanunu türk səs sisteminə, İran qanunu isə fars səs sisteminə əsaslanır. Bu alətlərdə yerli musiqi ənənələrinə məxsus olan mikrointervallardan istifadə olunur. İndi isə hazırda mövcud olan qanun areallarının fərdi və fərqli xüsusiyyətlərini cədvəl vasitəsilə əyani nəzərdən keçirək[24]:

[24] Cədvəldə "qeyri-müntəzəm" termini qısaldılmış şəkildə (q-m) yazılmışdır. Alətin qalınlıq ölçüsü isə hündürlük ölçüsü kimi də qəbul oluna bilər.

*Cədvəl 1.*

| № | Alətin növü | Ölçülər (sm.) Uzunluq En qalınlıq | Diapazon | Pərdələr və Simlərin Sayı | Temperasiya |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan qanunu | 80-90 sm<br>38-40 sm<br>6 sm | **G-e³** | 24 pərdə<br>72 (24x3) sim | Avropa müntəzəm |
| 2. | Türkiyə qanunu | 95-100 sm<br>38-40 sm<br>4-6 sm | **d –f³**<br>(Qaba Yegah -Tiz Acem | 26 pərdə<br>78 (26x3) sim | Türkiyə q.-m. |
| 3. | Ərəb qanunu | 100-110 sm<br>40 sm<br>8,8 sm | **D – c³** | 36 pərdə<br>108 (36x3) sim | Ərəb q.-m. |
| 4. | İran qanunu | 80-90 sm<br>37-40 sm<br>6 sm | **d- c³** | 26 pərdə<br>78 (26x3) sim | Fars q.-m. |

"Qanun" adını daşıyan alətin regional yayım növlərinin əsas fərqi məqam quruluşları ilə əlaqədardır. Bu, Azərbaycan, Türkiyə, Ərəb və İran qanunlarının temperasiya fərqidir. Onların arasındakı ölçü fərqləri, simlərin sayca fərqləri zaman-zaman azalsa da, lakin temperasiya özəllikləri azalmamışdır. Bu temperasiya fərqləri isə qanunların pərdələri və simləri arasındakı intervallar ilə müəyyən olunur.

Mikrointervallar ilə qurulan məqamlar və onların səs düzümləri Türkiyənin, Ərəbin və İranın xalq musiqisinin, muğamlarının melodik və intonasiya özəlliyini, fərqliliyini təmin edir. Məsələn, nümunə üçün qeyd edək ki, Türkiyədə qanun pərdə və simlərinin adı makam adları ilə ardıcıllaşır. Azərbaycan qanununda isə pərdə və simlərin ardıcıllaşması Avropanın diatonik qamma sistemindəki kimidir. Bu makam adlarının hər biri Avropada qamma adlarına və qamma pillələrinə uyğundur. Azərbaycan məqamları və xalq musiqisi nümunələri istisna olmaqla, Türkiyə, Ərəb və İran məqamlarında və xalq musiqisi nümunələrində hər birinin temperasiyasına uyğun olan mikrointervallar vardır. Türkiyə, Ərəb və İran ənənəvi musiqisində və məqamlarında tətbiq edilən mikrointervallar isə yarım tondan kiçik və yarım tondan böyük intervallardır ki, bu da həmin xalqların musiqisində bir tonun bərabər olmayan temperasiyasından, yəni qeyri-bərabər 3-4 hissəyə bölünməsindən irəli gəlir. Belə mikrointervallar ilə birlikdə isə qeyri-müntəzəm temperasiya quruluşları ilk növbədə musiqi alətlərinin pərdə düzülüşündə özünü göstərirlər. Türkiyə və Azərbaycan qanunlarının pərdə-

səs düzülüşünü müqayisəli araşdırdıqda məlum olur ki, bu pərdə quruluşu hər bir xalqın temperasiya və məqam quruluşuna əsaslanır. Bu müqayisə eynilə Azərbaycan Ərəb, Azərbaycan İran qanunları arasında aparıla bilər.

Qanun adını daşımayan, lakin qanun ilə eyni növlü olan alətlər üzərində dayanaraq, bu alətləri səntur ailəsindən fərqləndirmək üçün onları "qanun ailəsi" adı ilə dissertasiyada qruplaşdırılıb.

Beləliklə, qanun alətinin forma (dördbucaq, trapesiya), quruluş, ifa vasitəsi (barmaq, mizrab, çubuq), tutulma qaydası (diz, yer, dayaq üzərində), tutulma vəziyyəti (üfüqi-səthi) kimi xüsusiyyətlərini nəzərə alaraq, belə qənaətə gələ bilirik ki, dünya xalqlarının ifaçılıq sənətində qanunnövlü alətlər geniş yayılmışdır. Bu alətləri iki əsas qrupa bölmək olar: qanun ailəsi və səntur ailəsi (yaxud qanun qrupu və səntur qrupu).

**Dissertasiyanın III Fəsil "Azərbaycan peşəkar ifaçılıq sənətində və bəstəkar yaradıcılığında qanun alətinin yeri və rolu"** adlanır və dörd bölümdən ibarətdir. **3.1. "Qanun aləti üzrə ifaçılığın və tədrisin inkişaf yolları" -** Musiqi alətinin ifaçılıq sənətindən ayrılmaz olması musiqi tarixinin və ifaçılıq ənənələrinin mühüm xüsusiyyətlərindən biridir. Hər bir musiqi alətinin sənət və xalq üçün əhəmiyyəti onun praktik olaraq ifa edilməsi və ifaçılıq sənətində tətbiqi ilə bağlıdır. Musiqi tarixi göstərir ki, ifaçılıq sənətində çalınmayan, tətbiq olunmayan və maraq göstərilməyən alətlər zaman-zaman unudulur, öz tətbiqi və praktik əhəmiyyətini itirirlər. Bu baxımdan, musiqi alətlərinin yaranmasında, təkamül və təkmilləşməsində, eləcə də onun bədii və texniki ifa imkanlarının inkişaf etməsində ifaçılıq sənətinin böyük rolu vardır. Bütün bu məsələlər qanun alətinə də aiddir. Belə ki, qanun alətinin kompleks tədqiqi onun ifaçılığını da nəzərdə tutur. Çünki qanun alətinin tarixən yaşaması, milli mədəniyyətdə yer tutması, onun bədii və texniki ifa imkanlarının və səslənmə tərzinin reallaşması, bu imkanların inkişaf etməsi yalnız ifaçılıq vasitəsilə həyata keçirilə bilər.

Azərbaycan peşəkar ifaçılıq sənətində qanun aləti yeri və rolu başlıca olaraq, üç istiqamətdə özünü göstərir:

1. Solo (fərdi) ifa; 2. Ansambl və orkestr heyətində ifa.

Azərbaycan musiqi-ifaçılıq sənətinin tarixində qanun alətinin solo və ansambl tərkibində geniş tətbiqinə dair maraqlı və təsdiqedici mənbələr vardır. Məsələn, orta əsrlərin poemaları, qəzəllləri, miniatürləri, dini və fəlsəfi ədəbiyyatları, musiqi risalələri bu faktı təsdiq edən mənbələrdir.

Lakin XIX əsrin II yarısından başlayaraq, Azərbaycanda feodal münasibətlərinin tədricən tarixə qovuşması səbəbindən feodal saraylarında, xanbəy malikanələrində musiqi məclislərinin bəzəyi olan bəzi çalğı alətlərimiz

də unudulmağa başlayır ki, onlardan biri də qanun aləti idi. Buna görə də artıq XIX əsrdə bu alətin ifasını təsdiq edə bilən mənbələrlə qarşılaşmırıq.

Məlumdur ki, qanun alətinin Azərbaycan musiqi ifaçılığında bərpası XX əsrin əvvəllərində görkəmli musiqi xadimi, ifaçı və müəllim Məşədi Cəmil Əmirov tərəfindən həyata keçirilmişdir.O, 1911-ci ildə İstambula səfərində Azərbaycan musiqisini təbliğ etməklə yanaşı, öz musiqi təhsilini də artırmış, 1913-cü ildə vətənə dönəndə xalqımızın qədim alətləri olan ud və qanunu Türkiyədən özü ilə gətirmişdi.

Azərbaycan teatr səhnəsinin məşhur aktyoru S. Ruhullanın xatirələrinə əsaslanan F.Şuşinski bu xatirələrdə M.C.Əmirovun qanun çalması barədə qeydləri də göstərir: "Görkəmli səhnə ustası Sidqi Ruhulla yazmışdı: "Məşədi Cəmil öz dövrünün ən qabaqcıl və maarifpərvər adamlarından biri idi. Xanəndəlik etməzdi, lakin gözəl oxuyardı. Tar, ud və kanon alətlərini çalmaqda misilsiz usta idi."[25]

Təəssüf ki, sovet hakimiyyətindən əvvəl də, sovet hakimiyyətinin ilk illərində də bu qədim çalğı alətimizin bərpası, onların ifaçılığa və tədrisə qaytarılması barədə heç bir tədbir görülmədi. Digər tərəfdən, qanun alətinin zərif tembri və incə səslənməsi tar, kamança və balaban kimi nisbətən bərksəsli alətlər ilə müqayisədə onun həmişə toy məclislərində və konsertlərdə çalınmasını mümkünsüz etdi. Məlum olduğu kimi, XIX ikinci yarısından etibarən muğam ifaçılığında aparıcı yer tutan vokal-instumental ansambl (muğam üçlüyü) xanəndə, tar və kamançadan ibarət olduğu üçün simli qanun aləti öz zərif və sakit səslənməsi ilə muğam sənətkarlarını o qədər də cəlb etmirdi. Digər tərəfdən, alətin formasının böyüklüyü onun daşınmasında çətinlik yaratdığı üçün ifaçılar tərəfindən alətə maraq azaldı. Diqqət etsək görərik ki, sazəndə dəstəsinə daxil olan tar, kamança, dəf, balaban, tütək alətləri qanun ilə müqayisədə nisbətən kiçik formaya malikdirlər. Fikrimizcə, daha bir səbəb də Azərbaycanda qanun alətini düzəldə bilən ustaların olmaması idi. Sovet hakimiyyətinin ilk illərində isə Azərbaycan Respublikasında siyasi quruculuq əsas yer tutduğundan, qədim mədəniyyət ənənələrinə əhəmiyyət verilməmiş, xüsusilə qanun, səntur, ud, ney, rübab, dutar kimi çalğı alətlərimiz feodalizm dövrünün, feodal saraylarının qalığı hesab olunaraq, ifaçılığa gətirilməmişdir.

XX əsrdə qanun alətinin müasir musiqi təhsili daxil edilməsi sayəsində bu alətin ifaçılıq repertuarına təkcə xalq musiqisi və muğamlar deyil, bəstəkar əsərləri də daxil edildi. Musiqi təhsili sayəsində qanun alətinin

---

[25] Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. – B., Yazıçı, 1985. s. 233

tamamilə yeni texniki və bədii imkanları aşkar edildi, alətin yeni ifaçılıq imkanları, texniki və bədii ifadə vasitələri, not yazıları və ştrixləri yarandı. Qanun tədrisində Avropa, Rusiya, Asiya, Azərbaycan bəstəkarlarının əsərlərinin ifa edilməsi, alət üçün tədris repertuarının hazırlanması nəticəsində qanun "folklor aləti" çərçivəsindən çıxaraq akademik milli alət səviyyəsinə yüksəldi.

1960-cı illərin ortalarından və 1970-ci illərdən etibarən qamma və etüdlər də yer almışdır ki, bu da şagird və tələbələrin texniki hazırlıq səviyyəsinin artırılmasına xidmət edir. Bu baxımdan, ilk qanun-ixtisas proqramlarında xalq musiqisinin və muğamların öyrədilməsi öz əksini tapmışdır.

Qanun tədrisi üçün ilk tədris proqramı - "Uşaq musiqi məktəblərinin kanon sinfi üçün proqram" 1985-ci ilə nəşr olunub[26].

"Uşaq musiqi məktəblərinin kanon sinfi üçün proqram"ın tərtibçiləri görkəmli qanun ifaçısı və müəllimi, A.Zeynallı adına orta ixtisas musiqi məktəbinin müəllimi Asya Tağıyeva, digəri Mədəniyyət nazirliyinin "musiqi təhsili üzrə metodika kabineti"nin baş metodisti Rauf İmanovdur.

Proqramın əsasında deyə bilərik ki, tədris zamanı qanun alətini öyrənən şagirdlərin musiqi tərbiyəsində muğamlara, xalq mahnılarına və rəqslərə önəm verilmişdir. Bu isə şagirdlərin musiqi tərbiyəsinin yalnız Azərbaycan, rus və Avropa bəstəkarlarının əsərləri üzrə deyil, həm də xalq musiqimizin əsasında aparılması məqsədini daşımışdır.

Nəşr olunan digər tədris vəsaiti "Uşaq musiqi və incəsənət məktəblərinin kanon sinfi üçün proqram"adlanır. Bu proqram 1994-cü ildə Mədəniyyət nazirliyinin musiqi təhsili üzrə elmi-metodika kabineti tərəfindən çapa tövsiyə edilmişdir. Proqramın tərtibçiləri – Bakı şəhəri 7 saylı uşaq musiqi məktəbinin müəllimi Nailə Bağırova və elmi-metodik kabinetin baş metodisti Rauf İmanovdur. Qeyd edək ki, N.Bağırova qanun alətinin tədrisində, ifaçı kadrların yetişməsində və qanun ifaçılığında mühüm rol oynayan pedaqoqlardandır.

Belə geniş çalğı, erqoloji imkanlar qanun üçün ixtisas-not və ixtisas-muğam proqramlarının pedaqoji repertuarında da özünü göstərir. Bu baxımdan, 1980-ci illərdə qanun üçün ixtisas proqramlarının xalq musiqisi və not əsərləri üzrə tərtib olunması prinsipi sonrakı illərdə uşaq musiqi məktəblərinin, orta ixtisas musiqi məktəblərinin, musiqi texnikumlarının (musiqi kolleclərinin) və ali musiqi məktəblərinin qanun proqramlarında da həyata keçirildi.

---

[26] Azərbaycanda qanun alətinin adı XX əsrdə və yaxın illərə qədər "kanon" kimi yazılırdı. Buna görə, məqalədə baxılan tədris proqramlarındakı "kanon" sözünü olduğu kimi saxlamışıq.

Fəaliyyətə başlamasında ötən 15-illik dövr ərzində Azərbaycan Milli Konservatoriyasının “İfaçılıq” fakultəsində qədim milli alətlərimiz olan tar, kamança, balaban, qanun və zərb alətləri tədris edilir. İfaçılıq fakultəsində milli musiqi alətlərinin tədrisi iki ixtisas proqramı ilə həyata keçirilir: 1) ixtisas-not (bəstəkar əsərləri, işləmələr və transkripsiyalar); 2) ixtisas-muğam (xalq musiqisi, folklor, rəqs, muğam, zərbi-muğam).

Qanun alətinin tədrisində dosent Təranə Əliyevanın aparıcı pedaqoji rolunu və zəngin təcrübəsini xüsusilə qeyd edirik. Məhz onun təcrübəli və peşəkar pedaqoq, ifaçı və tədqiqatçı kimi fəaliyyəti qanun alətinin müasir inkişafını təmin etmişdir. T.Əliyeva qanun aləti üçün ilk dərsliyi -“Qanun məktəbi” 2014-cü ildə dərsliyini yazmışdır. “Qanun məktəbi” ibtidai və orta ixtisas musiqi məktəbləri və eləcə də incəsənət gimnazoya şagirdləri üçün nəzərdə tutulmuşdur.

Bu gün çağdaş qanun ifacılığı və tədrisi uğurla davam etdirilir. Qanun ifaçılığının inkişafı və nailiyyətləri A.Tağıyevadan sonra görkəmli ifaçılar və pedaqoqlar nəslini - Gülarə Tağıyevanın, Nailə Bağırovanın, Gülnarə Rəsulovanın, Yaqut Məmmədovanın, Vəcihə Səfərovanın, Münəvvər Məlikovanın, Raziyə Əhmədovanın, Elmira Axundovanın adlarını vurğulaya bilərik. Alətin istər tədrisində, istər solo, müşayiət və ansamblı ifasında, onun təbliğində və yaşamasında başda M. C. Əmirov, A.Tağıyeva olmaqla bu qanun ifaçılarının böyük rolu olmuşdur.

Respublikamızda müstəqillik illərində musiqi təhsilinin və incəsənətinin inkişafı nəticəsində yeni və istedadlı ifaçılıq nəsli yetişdi və bu nəsil əvvəlki ifaçı nəslinin varisi kimi onların nailiyyətlərini davam etdirdi. Təranə Əliyeva, Məlahət Əliyeva, daha sonra ifaçılığa qədəm qoyan gənclərdən Çinarə Heydərova, Natavan Həsənova, Şəbnəm Şıxəliyeva, Xədicə Həsənova, Elnur Əsədullayev, Rəşad İlyasov qanun ifaçılığı sahəsində yeni uğurlara imza ataraq, bu qədim xalq çalğı alətinin qorunmasında, yaşamasında, tədrisində və sevilməsində öz layiqli yerlərini tutdular. Son illərdə Azərbaycan Milli Konservatoriyasında istedadlı qanunçalanlar nəsli yetişmişdir. Onlar ifaçılıq sənətində ilk uğurlu addımları ilə müəllimlərini sevindirirlər.

Əməkdar artist, dosent T.Əliyevanın 2004-cü ildə yaratdığı “İnci” qanunçalanlar ansamblı ifaçılıq sənətində yeni hadisə kimi qiymətləndirildi. Ansambl tezliklə sənətsevərlərin rəğbətini qazandı və qanun alətinin təbliğində, qanun ifaçılığında özünəməxsus rol oynadı.

2015-ci il mart ayında “Muğam aləmi” IV Beynəlxalq festivalı çərçivəsində keçirilən instrumental ifaçılıq üzrə respublika və beynəlxalq müsabiqədə ilk dəfə proqrama qanun aləti də daxil olundu.

XX-XXI əsrlərdə qanun ifaçılığının professional səviyyədə inkişaf etməsi qanun tədrisinin düzgün həyata keçirilməsi ilə sıx vəhdətdə olmuşdur.

Bu həqiqəti qanun aləti üzrə təhsilin və ifaçılığın istər orta əsrlərdə, istər XX əsrdə keçdiyi inkişaf yolu əsaslı şəkildə təsdiq edir.

**3.2. "Qanun aləti üçün bəstəkar əsərlərinin və xalq musiqisi" -** Azərbaycan bəstəkarları xalq çalğı alətləri tar, kamança, balaban ilə yanaşı, qanun aləti üçün də müxtəlif formalı, xarakterli əsərlər yazmış, habelə bu aləti orkestr əsərlərinin partiturasına daxil etmişlər. Qanun üçün köçürülən və işlənilən nümunələrlə birlikdə orijinal bəstəkar əsərləri də bu alətin bədii və texniki imkanlarını zənginləşdirmiş və inkişaf etdirmişdir. Məsələn, Z.Bağırovun, S.Ələsgərovun, H.Xanməmmədovun, D.Dadaşovun, T.Zülfüqarovun, İ.Abdullayevin əsərlərin misal göstərə bilərik. Bundan başqa, F.Əlizadənin "İnitzar" operasında qanun alətindən solo alət kimi istifadə olunmasını da qeyd etməliyik.

Xalq artisti, professor Ağadadaş Dadaşov (Dadaş Dadaşov) öz yaradıcılıq üslubunda müasirlik ilə ənənənin vəhdətinə nail olmuşdur. Qanun üçün maraqlı,peşəkar səviyyəli əsərlər bəstələmişdir-"Konsert", "Çinarənin sevinci".

**"Çinarənin sevinci"** ("Chinara's jou") əsəri solo qanun və fortepiano üçün bəstələnmişdir[27]. Sonra isə bəstəkar bu əsəri solo qanun və kamera orkestri üçün işləmişdir. Bu əsərdə qanun alətinin melodik və texniki imkanları, tembr çalarları bəstəkar tərəfindən uğurla tətbiq edilmişdir.

Əsər nikbin, şən ovqat daşıyır. Qanun partiyasının oynaq, nikbin, aramsız və dinamik melodiyası orkestrin aksentli və sinkoplu müşayiəti ilə səslənərək, sanki gəncliyin sevincini, onun nikbin və ritmik yaşam tərzini, sönməz iradəsini və uğurlarını ifadə edir. Maraqlıdır ki, müəllif əsərin janrını da konkret belə müəyyən etmişdir: "Skerso". *Alleqro con brio* tempi əvvəldən sona qədər dəyişməz qalaraq, əsərin skerso xarakterini, nikbin və dinamik ovqatını daha da qabarıq edir.

"Çinarənin sevinci", qeyd etdiyimiz kimi, qanun ilə kamera orkestri üçün işləmişdir. Əsərin partiturasında kamera orkestrinin tərkibi simlilərdən və fortepianodan ibarətdir: Violini I, Violini II, Viole, Violoncelli, Contrabassi, Piano. Belə tərkib simli çalğı aləti qanun ilə səslənmə identifikasiyası yaradaraq, qanun və Avropa simlilərinin tembr müxtəlifliyi fonunda bədii kontrastlıq ilə bədii uyğunluğun vəhdətini təşkil edir.

"Çinarənin sevinci" əsərinin ümumi tonallığı mi-minordur. Orkestr partiyası da bu tonallıqdadır. Lakin qanun alətinin kökü "in D" olduğu üçün

---

[27] Bəstəkar bu əsərini qanun ilə xalq çalğı alətləri orkestri üçün də işləmişdir.

qanunun solo partiyası harmonik re-minorda ifa olunu. Əsər şüştər məqamına əsaslanır. Orkestr partiyası mi-şüştərdə, solo qanun partiyası müvafiq olaraq re-şüştərdə ifa edilir. "Çinarənin sevinci" əsəri mürəkkəb üçhissəli formada yazılmışdır: $ABA_1$.

Təhlil etdyimiz daha bir material **"Azərbaycan xalq rəqsləri. Qanun üçün işləmələr"** adlanır. Bu işləmələr bizim tərəfimizdən həyata keçirilmişdir. Biz Azərbaycan muğamlarından "Bayatı Şiraz", "Mahur Hindi" və "Bayatı Kürd" instrumental muğamlarını da qanun aləti üçün işləmiş və nota yazmışıq. Lakin dissertasiyanın həcmi yol vermədiyi üçün muğam işləmələrinin təhlilini aparmırıq.

Xalq rəqs işləmələri qanun alətinin diapazonu, registrləri, tembri, texniki və bədii imkanları əsasında nota yazılmışdır. Xalq rəqslərinin qanun üçün işlənilməsi orta çətinlikli olub, musiqi kolleclərinin, orta ixtsas musiqi məktəblərinin şagirdləri üçün nəzərdə tutulmuşdur. Buna baxmayaraq, işləmələr ali musiqi təhsili verən müəssisələrdə də, peşəkar ifaçı repertuarında da istifadə edilə bilər.

Qeyd edək ki, xalq rəqs melodiyaları üzərində işləyərkən biz qanun üzrə ifaçı, dosent Təranə Əliyevadan, xalq rəqslərinin qarmonda peşəkar ifaçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aydın Əliyevdən, "Xalq çalğı alətləri" kafedrasının müdiri,Əməkdar müəllim, dosent Ramiz Əzizovdan, "İnstrumental muğam" kafedrasının müdiri, Əməkdar artist, dosent Malik Mənsurovdan, tanınmış peşəkar tar ifaçısı Əməkdar artist, dosent Ələkbər Ələkbərovdan, təcrübəli muğam müəllimiValeh Rəhimovdan dəyərli məsləhətlər almışıq.

"Qanun üçün Azərbaycan xalq rəqs işləmələri" əlyazma toplusuna daxil olan 9 rəqs nümunəsi aşağıdakı ardıcıllığa malikdir:

1. "Eynur"; 2. "Mirzəyi"; 3. "Yüz bir"; 4. "Şaqani"; 5. "Nəlbəki"; 6. "Natəvanı"; 7. "Turacı"; 8. "Sevgilim"; 9. "Brilyant"

Bu rəqs nümunələrinin bəziləri Milli Konservatoriyanın professoru Malik Quliyev və dosent Arzu Quliyeva tərəfindən nota yazılmış və tərtib olunmuş "Azərbaycan xalq rəqsləri" dərs vəsaitindən [281] seçilmişdir.

Bu rəqs işləmələrindən "Şaqani", "Turacı", "Brilyant" rast, "Mirzəyi" segah, "Nəlbəki", "Natəvanı" bayatı-şiraz, "Eynur", "Sevgilim", "Yüz bir" şüştər məqamında qurulmuşlar. Yuxarıda sadalanan rəqslərin bəzi təhlil olunanlarını diqqətinizə çatdırırıq.

**"Şaqani"** rəqsi do-rast məqamındadır. Bu məqam Mahur-Hindi muğamının mayəsinə uyğundur. Rəqsin tonallığı Do-major qammasındadır.

Rəqs sadə üçhissəli formadadır: $ABA_1$.

**“Brilyant”** rəqsi birhissəli formadadır, yəni iki cüməlsdən ibarət sadə period formasına malikdir. Cümlələrin 8x+8x quruluşu kvadrat period əmələ gətirir.

**“Nəlbəki”** - geniş populyarlıq qazanmış xalq rəqslərindəndir. Mi - bayatı-şiraz məqamına əsaslanır və mi-minor tonallığında nota yazılmışdır. Bu rəqsin melodiyası fraza təkrarları əsasında qurulmuşdur. Rəqs sadə ikihissəli formadadır: A+B.

**3.3. “Peşəkar qanun ifaçılığına və tədrisinə dair yeni elmi-praktik təkliflər” -** Xalq çalğı alətlərinin ifaçılıq sənətində texniki və bədii imkanlarının artması bəstəkarların bu alətlər üçün əsərlər yazması ilə bağlıdır.

Bununla yanaşı, xalq çalğı alətlərinin təkmilləşdirilməsi və inkişafında peşəkar ifaçıların da xidmətləri vardır. Onlar alətə nəzəri və praktik cəhətdən mükəmməl bələd olduqları üçün istər alətin forma və quruluşuna, istər ifaçılığına və tədrisinə dair yeni təkliflər irəli sürür, alətin ifa və tədrisinə dair dərs vəsaitləri, metodik tövsiyələr, proqramlar yazırlar.

Lakin qanun alətində muğamların ifa olunmasına baxmayaraq, indiyə qədər qanun üçün muğamların nota yazılması həyata keçirilməmişdir.

Lakin təəssüf ki, muğam ifaçılığında özünəməxsus rol oynayan bu mükəmməl alət üçün muğamlar nota yazılmamışdır. Biz dissertasiya üzərində işlədiyimiz zaman bu vəzifəni də qarşımıza qoymuş və ilk dəfə Azərbaycan muğamlarını qanun aləti üçün nota yazmışıq.

Muğamları qanun üçün nota yazarkən həm muğamın ifa, məqam, melodiya, səslənmə xüsusiyyətlərinin, həm də qanunun özünəməxsus ifa xüsusiyyətlərinin tələbi ilə bəzi yeni not işarələrini yaratmış və onları muğam yazılarında tətbiq etmişik.

Məlumdur ki, Azərbaycanda bəstəkarlar, musiqişünaslar və ifaçılar muğamları instrumental və vokal-instrumenral şəkildə nota yazmışlar. Muğamların fortepiano üçün nota yazılması ilk dəfə 1936-cu ildə bəstəkarlar T.Quliyev və Z.Bağırov tərəfindən həyata keçirilmişdir. 1960-1970-ci illərdə isə bəstəkar və musiqişünas Nəriman Məmmədov muğamları fortepiano və səs ilə fortepiano üçün nota yazmışdır. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Arif Əsədullayev də instrumental muğamların fortepiano üçün nota yazılmasına böyük əmək sərf etmişdir. Bununla yanaşı, son illər instrumental muğamların *mezzo-soprano* açarında tar üçün not yazıları meydana gəlmişdir. Təcrübəli tar ifaçı və muğam müəllim Əkrəm Məmmədov, eləcə də sənətşünaslıq namizədi Fuad Əzimov bu istiqamətdə işlər görmüş, muğamların tar üçün not məcmuələrini nəşr etdirmişlər.

İlk növbədə, qanun alətinin spesifik tembr və səslənmə xüsusiyyətini

nəzərə almışıq. İkincisi, nota yazan zaman muğamların orijinallığına, melodik səslənməsinə, özünəməxsus forma, melodiya və intonasiya xüsusiyyətlərinə həssas və diqqətlə yanaşmışıq. Üçüncüsü, özünəməxsus bədii ifadə vasitələrini not yazısında qanun üçün maksimum qorumağa və səsləndirməyə çalışmışıq. Nəhayət, qanun alətinin bütün texniki və bədii imkanlarını muğamların melodik, dinamik, emosional səslənməsinə yönəltmişik.

Bu çalğı üsullarını bizim tərəfimizdən qanun üçün nota yazılmış və işlənilmiş muğamlar üzərində əyani not nümunələri ilə göstərək. Qeyd edək ki, biz **"Mahur-hindi", "Bayatı-Şiraz" və "Bayatı-kürd"** muğamlarını qanun ifası üçün nota yazmışıq Bu zaman qanun alətinin diapazonu, registr və tembri, çalğı üsulları, texniki və bədii ifa imkanları, səslənmə effektləri nəzərə alınmışdır. Bundan başqa, qanun üçün yeni not işarələrini və ştrixlərini muğamların not yazısında tətbiq etmişik.

**3.4. "Qanun harmonik və çoxsəsli xalq çalğı alət kimi" -** Qanun ifaçılığının inkişafında peşəkar ifaçıların, təcrübəli müəllimlərin və bəstəkarların xüsusi rolunu qeyd etmək vacibdir. Bir çox xalq çalğı alətləri kimi bəzən musiqişünaslıq, xüsusilə də rus musiqişünaslığı Azərbaycan qanun alətini daha çox təksəsli melodiyalar çalan melodik alət kimi təqdim etmişlər. Belə yanlış yanaşmanın bir səbəbi də qanun üçün köçürülən bəstəkar pyeslərinin və qanun üçün xalq musiqisi işləmələrinin birsəsli qaydada nota yazılmasıdır. Halbuki qanun alətinin müasir ifaçılıq imkanları və perspektivləri belə yanaşmanı kökündən inkar edir. Qanun aləti üçün bizim tərəfimizdən nota yazılan və işlənilən Azərbaycan xalq rəqslərinin və muğamları təhlili nəticəsində belə bir mühüm elmi faktı sübut edirik ki, bu qədim Azərbaycan çalğı aləti heç də birsəsli melodiya aləti deyildir.

Bu alətdə iki, üç, dörd səsli akkordlar melodiya ilə eyni zamanda çalına bilir. Bundan başqa, qanun alətinin texniki ifa qaydaları bu alətdə ən mürəkkəb quruluşlu akkordları istər şaquli, istərsə də üfüqi (səslərin açılışı) vəziyyətdə (xüsusilə qlissando üsulu ilə) çalmağa praktik imkanlar verir.

Qanun alətinə çoxsəsli və harmonik alət kimi yanaşmağımızın daha bir real əsası bu alətdə oktavalarla ifanın mümkünlüyüdür. Qədim Azərbaycan xalq çalğı alətində habelə iki əlin vasitəsilə melodiyanın burdon səs fonunda ifası da, melodiyanın səsaltı polifonik xətlə birgə ifası da tamamilə mümkündür.

Qanun ifaçılığının maraqlı xüsusiyyətlərindən birini də aşkar etmişik. Bu, xalq çalğı aləti qanunun iki əlli ifa fakturasıdır. Biz qanun ifasının iki növdə fakturasını irəli sürürük:

**Qanun ifaçılığında monofaktura:**

təksəsli-melodik monofaktura; çoxsəsli, harmonik monofaktura

**Qanun ifaçılığında polifaktura:**

harmonik, çoxsəsli polifaktura; polifonik polifaktura.

İndi isə qanun ifaçılığında irəli sürdüyümüz bütün nəzəri və praktik yeniliyi əyani not nümunələri əsasında təsdiq edək.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**


1. Qanun xalq çalğı alətinin tədqiqat aspektlərinə dair. // Harmony Выпуск №13/2014
2. Ü.Hacıbəylinin qanun alətinə dair elmi mühazirələri //Harmony Выпуск №14/2014
3. Qanun aləti S.Abdullayevanın tədqiqatlarında //Konservatoriya jurnalı. №1(27). Bakı 2015, s.61-67
4. Musiqi lüğətlərində qanun alətinə dair məlumatlar. //Musiqi dünyası jurnalı. № 3/64, 2015, s.73-75
5. Azərbaycan xalq musiqisi qanun aləti üzrə tədris proqramlarında //Musiqi dünyası jurnalı. № 4/65, 2015 s.10-12
6. Dadaş Dadaşovun "Çinarənin sevinci" əsərinin forma və ifa xüsusiyyətləri //Musiqi dünyası jurnalı, №3 (33). 2016, s.87-94
7. Qanun üçün Azərbaycan xalq rəqsişləmələri //Musiqi dünyası jurnalı, №4 (34), 2016, s.44-50
8. Систематизация источников об Азербайджанском музыкальном инструменте «Ганун» / Научная дискуссия: Инновации в современном мире. Сборник статей поматериалом XVIII международной заочной научно-практической конференции. Интернаука №11 (42). Москва ноябрь 2015г. с.120-123
9. Энциклопедии и словари об инструменте ганун. /Восток и Запад: история общество, культура. Сборник материалов IV Международной заочной научно-практической конференции. Красноярск 15 ноября 2015г.с.16-23
10. Qədim Qanun aləti müasir milli ifaçılıq sənətində. /Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi Konfransının materialları. Azərbaycan Dövlət Neft və Sənayə Universiteti. Bakı, 24-25 may, 2016-cı il. II cild. s.506-508
11. Mugham and Ganun in the Azerbaijani musical rendering art. // Международный научный журнал «Поиск», Казахстан, № 3 (1), 2017, с. 72-76

**Натаван Микаил гызы Гасанова**

# Исполнительские особенности азербайджанской народной музыки на инструменте ганун

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 3-х глав, 6-ти разделов, заключения, использованной научной литературы, сайтографии и нотографии. Во введении подчеркивается актуальность, степень разработанности темы, цели и задачи, научное и практическое значение исследования.

Историко-морфологическая методология исследовано на основе историко-сравнительногоанализа: исторический фон инструмента, этнокультурная идентичность, историческое образование и эволюционные процессы, совершенствование и изменение формы инструмента.

По сравнению с идеей, что инструмент ганун (канон) - всего лишь мелодичный инструмент, в данной работе этот инструмент впервые был представлен как инструмент для многоголосных и гармонично-мелодических исполнений, а также возможность исполнения нескольких аккордов на вертикальной линии соответственно теоретической и практическойобоснованности.

**I глава диссертации – «Современные аспекты исследования инструмента ганун (канон) в азербайджанском музыковедении» состоит из 2-х разделов: 1.1. «Этноорганология инструмента ганун»; 1.2. «Историческая морфология инструмента ганун»;**

**II глава – «Типология инструмента ганун в мировой практике и их сравнительный анализ».**

**II глава – «Роль и значение инструмента ганун в азербайджанском профессиональном исполнительском искусстве и его значение в музыкальном образовании» состоит из 4-х разделов: 3.1. Пути развития инструмента ганун в исполнительстве и образовании; 3.2. Анализ произведений, написанных композиторами для инструмента ганун и обработок народной музыки. 3.3. Современные, научно-практические рекомендации к образованию и профессиональному исполнительству на гануне. 3.4. Ганун как многоголосный и гармоничный национальный инструмент.**

В **заключении** даются выводы и обобщения проведенного исследования.

**Natavan Mikayil Hasanova**

## Performing features of Azerbaijani folk music on kanun instrument


## SUMMARY

The thesis consists of an introduction, 3 chapters, 6 sections, conclusion, used scientific literature, sitography and notographies. The introduction emphasizes the relevance, the degree of development of the topic, the goals and objectives, the scientific and practical significance of the study.

The historical-morphological methodology was studied on the basis of historical and comparative analysis: the historical background of the instrument, ethnocultural identity, historical education and evolutionary processes, improvement and modification of the instrument form.

Compared with the idea the kanun is only a melodic instrument, in this work this instrument was first presented as a tool for polyphonic and harmonious-melodic performances, as well as the possibility of performing several chords on a vertical line according to the theoretical and practical validity.

**I Chapter I of the thesis - "Modern aspects of the study of the kanun instrument in the Azerbaijan musicology" consists of 2 sections: 1.1. "Ethnororganology of the kanun instrument"; 1.2. "Historical morphology of the kanun instrument";**

**II Chapter II - "Typology of the kanun instrument in the world practice and its comparative analysis".**

**Chapter III - "The Role and Significance of the kanun instrument in the Azerbaijan Professional Performing Arts and Its Importance in Music Education" consists of 4 sections: 3.1. The ways of development of the kanun instrument in performance and education; 3.2. An analysis of works written by composers for the kanun instrument and the processing of folk music. 3.3. Modern, scientific and practical recommendations for education and professional performance on the eve. 3.4. Kanun as a multi-voiced and harmonious national instrument.**

**The conclusion** consists of the findings and summarizes of the study

Çapa imzalanıb: 16.12.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**НАТАВАН МИКАИЛ гызы ГАСАНОВА**

# ИСПОЛНИТЕЛЬСКИЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ МУЗЫКИ НА ИНСТРУМЕНТЕ ГАНУН

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по искусствоведению**

**Баку - 2018**